


VƏTƏNDAŞ CƏMİYYƏTİ ÜÇÜN PRAKTİKİ TƏLİMAT

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İNSAN HÜQUQLARI ÜZRƏ TÖVSİYƏLƏRİNİN İCRASINI NECƏ YOXLAMALI

UNITED NATIONS

UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF HIGH COMMISSIONER

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı bu vəsaitin 2015-ci ildə dərc olunmasında dəstəyinə görə Avropa İttifaqına dərin təşəkkürünü bildirir.

UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF HIGH COMMISSIONER

# Mündəricat


1. Bu Təlimatdan necə istifadə etməli .... 2
2. İcranın izlənməsi nədir və nə üçün vacibdir? .... 3
3. Nəyi izləməli? .... 5
4. İzləmə metodları və tədbirləri .... 7
   4.1.Əməkdaşlıq üçün mexanizmlərin müəyyən edilməsi .... 7
   4.2.Təsirin maksimum səviyyəyə çatdırılması üçün insan hüquqları mexanizmlərinin bütün dövrlərində iştirak .... 8
   4.3.İnsan hüquqları sahəsində verilən tövsiyə və qənaətlərin sistemləşdirilməsi .... 8
   4.4.Prioritetləşdirmə və planlaşdırma .... 9
   4.5.Tövsiyələrin həyata keçirilməsinin monitorinqi .... 14
   4.6.Təkan verən qüvvədən istifadə .... 16
   4.7.Koalisiyaların qurulması və onlarla iş .... 17
   4.8.Tərəfdaşlıq .... 19
   4.9.Məlumatın yayılması və məlumatlandırmanın artırılması .... 21
   4.10.Təşviqat fəaliyyəti .... 23
   4.11.Potensialın yaradılması və gücləndirilməsi .... 25
   4.12.Monitorinq tədbirlərində gender perspektivinin inteqrə edilməsi .... 26
   4.13.İnklüzivliyin, müxtəlifliyin və əlçatımlığın əks olunması .... 27
   4.14.Məhkəmə fəaliyyətində və məhkəmə çəkişmələrində tövsiyələrdən istifadə edilməsi .... 27
   4.15.İzləmə tədbirlərinin nəticələri və yaxşı təcrübə ilə bölüşmək .... 28
   4.16.İnsan hüquqları mexanizmlərinin mövcud izləmə prosedurları və təcrübələri ilə iş .. 29
5. İzləmə prosedurları və insan hüquqları mexanizmləri ilə bağlı təcrübə .... 30
   5.1.İnsan Hüquqları üzrə Saziş qurumları .... 30
   5.2.İnsan Hüquqları Şurası .... 34
   5.3.Xüsusi Prosedurlar .... 36
   5.4.Universal Dövri İcmal .... 42
   5.5.Kompleks yanaşma .... 44
   5.6.Təzyiq tədbirləri .... 44
6. Əlavə məlumat .... 46
7. Bizimlə əlaqə saxlayın .... 47




# 1. Bu Təlimatdan necə istifadə etməli

İnsan Hüquqları üzrə Ali Komissarlıq (İHAK) tərəfindən nəşr olunan bu Təlimatda vətəndaş cəmiyyətinin Birləşmiş Millətlər Təşkilatının (BMT) insan hüquqları mexanizmləri, mandat və ya qurumlarının tövsiyələrinə necə əməl edə biləcəyi məsələləri diqqət mərkəzində durur. Bu mexanizmlərin əsas xüsusiyyətləri ilə artıq tanış olan oxucular İHAK-ın vətəndaş cəmiyyəti üçün "Birləşmiş Millətlər Təşkilatının insan hüquqları proqramı ilə iş və onun vətəndaş cəmiyyəti üçün Praktiki Təlimatları"[1] adlı məlumat kitabçasına istinad edə bilərlər.

Təlimatda 1 – 3-cü bölmələrində "növbəti fəaliyyət" və "icra"dan, 4-cü bölmədə isə vətəndaş cəmiyyəti iştirakçılarının (VCİ) istifadə edə biləcəkləri metod və fəaliyyət təsvir edilir. Bölmə 5-də BMT-nin insan hüquqları mexanizmlərinin mövcud izləmə prosedurları və təcrübələri, VCİ-lərin prosesdə necə iştirak edə biləcəyi kimi məsələlər nəzərdən keçirilir.

Təlimat vətəndaş cəmiyyətinin növbəti fəaliyyətini dəstəkləmək üçün alətlərə də istinad edir. Bu alətlərin siyahısı 6-cı bölmədə verilir.

Təlimat VCİ[2] və İHAK-ın bu sahədəki iştirakı sayəsində bəhrələnən növbəti fəaliyyət metodları və real təcrübə ilə tamamlanan tədbirlər çeşidinə nəzər salmaqla, VCİ-lərin öz prioritet və potensialı əsasında seçə biləcəkləri variantlar menyusunu təqdim edir.

Təlimat əsasən ölkə səviyyəsində işləyən VCİ-lər üçün nəzərdə tutulur. Sənəd ərəb, çin, ingilis, fransız, rus və ispan dillərində mövcuddur.

[1] www.ohchr.org/EN/AboutUs/Pages/CivilSociety.aspx səhifəsindən əldə oluna bilər

[2] Uğur hekayələrinin daxil edilməsi onların İHAK tərəfindən təsdiq olunduğunu ehtimal etmir.

# 2. İcranın izlənməsi nə deməkdir və nə üçün vacibdir?

İcranın izlənməsi hər kəsin bütün insan hüquqlarına daha çox hörmət bəslənməsi, onların qorunması və həyata keçirilməsi üçün insan hüquqları sahəsində mexanizm və qurumların verdiyi tövsiyə və qərarların icra olunduğunu təmin etmək məqsədi güdür.

BMT-nin insan hüquqları sahəsindəki mexanizm və qurumları bütün dünya ölkələrində insan hüquqlarının həyata keçirilməsi prosesini təkmilləşdirməyə çalışır. İnsan Hüquqları Şurasının qətnamələri, İstintaq Komissiyalarının əldə etdiyi məlumatlar, saziş qurumlarının tövsiyələri, xüsusi prosedurlar və Universal Dövri İcmal, fərdi işlərlə bağlı saziş qurumlarının verdiyi qərarlarda məqsəd müdafiədə olan boşluqları aradan qaldırmaq, insan hüquqlarının tam şəkildə həyata keçirilməsinə doğru irəliləmək üçün Dövlətlərə və digər iştirakçı tərəflərə yol göstərməkdir. Bütün bu məlumatlar, tövsiyələr və qərarlar hüquq subyektlərinin həyatını yaxşılığa doğru dəyişmək məqsədi güdür. Əsas öhdəlik bu dəyişikliklər üçün cavabdehliyin insan hüquqlarına hörmət etmək, onları qorumaq və həyata keçirmək vəzifəsi daşıyan Dövlətlərin üzərinə qoyulmasıdır. Hər bir halda, cəmiyyətin bütün üzvlərinin, fərdlərdən tutmuş özəl sektoradək, beynəlxalq icma və VCİ-lərın insan hüquqlarının həyata keçirilməsində rolu vardır. Xüsusilə də vətəndaş cəmiyyəti insan hüquqları üzrə tövsiyələrin həyata keçirilməsində vacib rol oynaya bilər.

## İzləmə tədbirləri üzrə mərhələlərin xülasəsi

**Vətəndaş cəmiyyəti tərəfindən izləmə**

**İşləmək üçün insan hüquqları mexanizmlərini müəyyən edin**

**Tövsiyyələri müəyyən edin və prioritetləşdirin**

**İzləmə tədbirlərini planlaşdırın**

**Vəkillik, koalisiyalar, bacarıqların artırılması, tərəfdaşlarla iş, hüquqi dəstək, ən qabaqcıl təcrübələrin bölüşməsi, insan hüquqları mexanizmlərin prosedurları üzrə izləmə proseslərinə töhvə vermək**

# 3. Nəyi izləməli?

BMT-nin insan hüquqları üzrə mexanizm və qurumlarının çoxsaylı məlumatlar əldə etmiş və tövsiyələr vermişdir. Vətəndaş cəmiyyəti onların məqsəd və fəaliyyət sahəsinə uyğun tövsiyələrin icra durumunu izləyir. Bu aşağıdakılar ola bilər:

- Üzv dövlətin insan hüquqları üzrə sazişi necə həyata keçirməsini yoxladıqdan sonra saziş qurumlarının yekun qeydlərində verilən tövsiyələr;
- Ölkəyə səfərlər, tematik hesabatlar və fərdi işlər üzrə informasiya mübadiləsində qeyd edildiyi kimi İnsan Hüquqları Şurasının xüsusi prosedurları ilə verilən tövsiyələr;
- İnsan Hüquqları Şurasının Universal Dövri İcmalından (UDİ) irəli gələn tövsiyələr;
- İnsan Hüquqları Şurasının və Baş Assambleyanın qətnamə və qərarları;
- İnsan Hüquqları  Şurasının Müşavirə Komitəsi, şikayətvermə proseduru, yerli əhalilərin Hüquqları üzrə Ekspert Mexanizmi, azlıqlarla bağlı məsələlər üzrə Forum, Sosial forum və biznes və insan hüquqları Forumu kimi ikinci dərəcəli qurumların işi;
- İstintaq komissiyaları, fakt-araşdırıcı missiyalar və İnsan Hüquqları Şurası, İnsan Hüquqları üzrə Ali Komissar və ya BMT-nin Baş Katibi tərəfindən insan hüquqları sahəsində müəyyən edilmiş digər xüsusi araşdırıcı mexanizmlərin tövsiyələri;
- BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının hesabat və tədqiqatlarında verilən tövsiyələr (yəni yerlərdə fəaliyyət haqda hesabatlar; İnsan Hüquqları Şurasının verdiyi mandatla ölkə və tematik vəziyyətlərə dair hesabat və tədqiqatlar);
- İnsan Hüquqları üzrə Ali Komissarın və insan hüquqları sahəsində müstəqil ekspertlərin ictimai bəyanatlarda Dövlətlərə və ya beynəlxalq icmaya etdikləri müraciətlər.

Bu, Dövlət və vətəndaş cəmiyyəti tərəfindən həyata keçirməsi üçün verilən tövsiyələrin natamam siyahısıdır. BMT mexanizmlərindən başqa, insan hüquqları üzrə regional və milli mexanizmlər də insan hüquqlarının yerinə yetirilməsini yaxşılaşdırmaq məqsədi güdən hesabat və tövsiyələr verir.

Diqqətin hansı məsələlərə yönələcəyinə dair qərar verərkən izləmə tədbirlərinin parçalanmış və ya hissələrə bölünmüş şəkildə aparılmasına yol verməmək mühümdür. Bu Təlimatın 5-ci hissəsində təsvir edildiyi kimi insan hüquqları üzrə müxtəlif mexanizmlərin öz izləmə prosedurları və təcrübələri olduğu halda, vəziyyətin monitorinqinə kompleks yanaşma tətbiq etmək vətəndaş cəmiyyətinin töhfə verə biləcəyi əlavə dəyərdir.

Kompleks yanaşma zamanı insan hüquqları mexanizmlərinin yalnız birinin verdiyi tövsiyələrə diqqət yönəlmir, bir sıra mexanizmlərdən istifadə olunur. Bu zaman fəaliyyətin bütün mərhələlərində insan hüquqları mexanizmləri ilə iş aparılır. İnsan hüquqları mexanizmləri növbəti mərhələlərə bölünə bilən dövrlərlə işləyir: informasiyanın toplanması, hesabatvermə, maraqlı Dövlətlə dialoq, tövsiyələr və onların yerinə yetirilməsi.

Beləliklə, vətəndaş cəmiyyəti bütün prosesə cəlb olunduqda tövsiyələrin yerinə yetirilməsində onun gördüyü iş daha səmərəli olur. İnsan hüquqları mexanizmlərinin tədbirlər

dövrünün bütün mərhələlərində davamlı iştirakın daha çox nəticə verəcəyi ehtimalı olduğu halda, VCİ-lər prosesdə əvvəlcədən iştirak etmədən insan hüquqları mexanizmlərinin işinin nəticələrindən və tövsiyələrindən faydalı şəkildə istifadə edə bilərlər.

## İzləmə tədbirləri üzrə mərhələlərin xülasəsi



# 4. İzləmə metodları və tədbirləri

Bu bölmədə keçmiş təcrübədən bəzi əyani nümunələrlə birlikdə vətəndaş cəmiyyətinin monitorinqi üçün bəzi metod və fəaliyyət növləri qısa şəkildə təsvir edilir.

## 4.1. Əməkdaşlıq üçün mexanizmlərin müəyyən edilməsi

Bütün insan hüquqlarının həyata keçirilməsi insan hüquqları üzrə bütün BMT qurumlarının əsas məqsədidir. Əksər ölkələrdə səlahiyyətli orqanların siyasi iradəsindən tutmuş hüquq mühafizə orqanlarının rəftarı, vətəndaş cəmiyyətinin fəaliyyəti, məhkəmələrin qərarları və onların müstəqillik səviyyəsi, dini təşkilatların təsiri, hökumətdə dəyişiklik və s. kimi faktorların kombinasiyası əsasında tərəqqi baş verir. İHAK və BMT-nin insan hüquqları mexanizmləri hüquqların həyata keçirilməsinə doğru yolun çəkilməsində mühüm rol oynaya bilər.




Hansı mexanizmin daha böyük təsiri var? Xüsusi Prosedurlar üzrə mandat sahiblərinin ölkəyə səfəri? Universal Dövri İcmalda (UDİ) Dövlətlərə ünvanlanmış tövsiyələr və əlaqədar siyasi proseslər? Yoxsa saziş qurumunun fərdi şikayət üzrə verdiyi qərar? Bəlkə də bunların və daha artığının qarışığı?

İnsan hüquqları mexanizminin insan hüquqları sahəsində spesifik tematik məsələdə və/ və ya ölkədə, region və ya müəyyən ərazidə nə kimi əlavə dəyəri ola bilər? İnsan hüquqları mexanizmlərində iştirak VCİ-ların prioritetlərinə, plan və potensialına necə uyğunlaşır?

Mexanizmin nə təklif edə biləcəyini təhlil etmək və onun gəldiyi nəticə və tövsiyələrini anlamaq 1) vətəndaş cəmiyyətinin belə mexanizm/lərdə iştirakına dair qərarların alınması; 2) belə iştirakın formalaşdırılması; və 3) belə iştirakın VCİ-ların strategiya və iş planlarına inteqrə edilməsi baxımından mühüm addımlardır.

## 4.2. Təsirin maksimum səviyyəyə çatdırılması üçün insan hüquqları mexanizmlərinin bütün dövrlərində iştirak

Təcrübə onu göstərir ki, vətəndaş cəmiyyəti insan hüquqları mexanizminin fəaliyyət dövrünün bütün mərhələlərində iştirak etdikdə insan hüquqları mexanizmləri ilə onun qarşılıqlı əlaqəsi daha çox nəticə verir. Məsələn, icmal olunan Dövlətə dair UDİ üzrə məlumat verildikdə vətəndaş cəmiyyəti onları daha çox düşündürən məsələlərə diqqət yetirməlidir, bu, uşaqların cismani cəzası və ya etnik azlıqlara qarşı ayrı-seçkilik məsələləri ola bilər. Onlar əvvəlcə öz Hökumət, sonradan isə UDİ üzrə interaktiv dialoqda iştirak edəcək Üzv Dövlətlərin nümayəndə heyəti ilə dialoq qura bilər, onları bu məsələlərə dair tövsiyə verməyə çağıra bilər. UDİ-in yekun sənədində bu tövsiyələr əks olunaraq, vəkillik fəaliyyətini və ya vətəndaş cəmiyyətinin digər fəaliyyətini gücləndirmək üçün ölkə səviyyəsində istifadə edilə bilər.

Eyni proseslər digər mexanizmlərlə bağlı baş verir. Bu, vətəndaş cəmiyyətinin əldə edilən məlumat və tövsiyələrin müvafiq və fokuslu olduğu ehtimalını artırdığı narahatlıq doğuran məsələlərə dair sənədlərlə yaxşı təsdiq olunan etibarlı məlumatın hazırlanmasıdır. Yaxşı ifadə olunmuş, icra oluna bilən, insan hüquqlarının qorunması sahəsində müəyyən edilmiş boşluqları aradan qaldıran, BMT-nin insan hüquqları qurumları tərəfindən verilən tövsiyələr vətəndaş cəmiyyətinin ölkə səviyyəsində vəkillik fəaliyyətinin dəstəklənməsi baxımından vacibdir.

## 4.3. İnsan hüquqları sahəsində verilən tövsiyə və qənaətlərin sistemləşdirilməsi

Həm tematik, həm ölkə əsaslı insan hüquqları mexanizmləri çərçivəsində çoxsaylı tövsiyələr verilmiş və qənaətlər ifadə olunmuşdur. Onların tematik və ya coğrafi maraq sahəsi üzrə toplanması və qruplaşdırılması monitorinq üzrə hərtərəfli yanaşmaya hazırlıq baxımından faydalı ola bilər. Tövsiyələrin və məlumatların xəritələşdirilməsi

- Tövsiyələrə çatımlığı artıra bilər;
- Məlumatlandırmanın artırılmasına və tövsiyələrin
- yayılmasına yardım edə bilər;
- Mövcud tövsiyələrin hərtərəfli icmalının hazırlanmasına, beləliklə monitorinq üçün hərtərəfli strategiya üçün təməlin qoyulmasna yardım edə bilər;
- Həyata keçirilmədə və fəaliyyətin izlənməsində prioritetləşməni dəstəkləyə bilər;
- Monitorinq planının hazırlanması üçün təməl kimi xidmət göstərə bilər.

Aşağıdakı alət bu prosesdə yardım edə bilər:

### Universal İnsan Hüquqları İndeksi

**Universal İnsan Hüquqları İndeksi**[3] saziş qurumlarından, xüsusi prosedurlardan və UDİ-dən tövsiyələri toplayan onlayn rejimli məlumat bazasıdır. İndeks istifadəçilərə saziş qurumunun, xüsusi prosedurlar və UDİ üzrə tövsiyələrə Dövlət, hüquq, qurum, qurban, vaxt çərçivəsi, və UDİ üzrə tövsiyə edən Dövlət(lər), nəzərdən keçirilən Dövlətin mövqeyi və sessiya kimi bir sıra kateqoriyalara çıxışı və onların araşdırılması üçün şərait yaradır. Bir neçə düyməni basmaqla axtarış edən şəxslər istənilən xüsusi vəziyyətdə insan hüquqlarının həyata keçirilməsi ilə bağlı BMT qurumlarının və vəziyyətə dair mexanizmlərin qiymətləndirməsinə nəzər sala bilərlər. Bu, BMT-nin insan hüquqları barədə sahib olduğu böyük həcmdə informasiyanı daha şəffaf və çatımlı müyəssər edir.

### Mərkəzi Asiyada tövsiyələrin qruplaşdırılması

Qırğızıstanda İHAK-ın Mərkəzi Asiya üzrə Regional Ofisi insan hüquqları üzrə BMT mexanizmlərinin tövsiyələrini, o cümlədən saziş qurumlarının, xüsusi prosedurlar və UDİ-dən doğan tövsiyələri hüquq üzrə qruplaşdıran icmalın hazırlanmasında elmi müəssisəyə dəstək göstərmişdir. Tövsiyələrin həyata keçirilməsi üçün işlərin planlaşdırılması zamanı bu təməl kimi xidmət etmişdir.[4]

## 4.4. Prioritetləşdirmə və planlaşdırma

VCİ bəzi tövsiyələri digərlərindən daha münasib hesab edə bilər. Onların hamısı deyil, bəziləri VCİ-lərin tematik və ya coğrafi prioritetlərinə aid ola bilər. Eynilə, onların bəzilərini izləmək asan ola bilər, digərlərinin monitorinqi üçün isə mövcud olmayan resurslar tələb oluna bilər. Bəzi tövsiyələr vətəndaş cəmiyyətinin insan hüquqları mexanizmi ilə yerinə yetirdiyi hazırlıq işinin nəticəsində verilə bilər. Bu tövsiyələrə əməl edilməsinin prioritetləşdiriləcəyi və onların VCİ-lərin strategiya və iş planlarına inteqrə olunacağı ehtimalı böyükdür.

---

[3] http://uhri.ohchr.org/

[4] Bu xülasə www.auca.kg saytından əldə edilə bilər

### Kanadada özəl subyektlər tərəfindən törədilən işgəncə və pis rəftar

2011-ci ildə Kanada Universitet Qadınlar Federasiyasının (KUQF) 110 Klubu Kanada Hökumətini özəl subyektlər tərəfindən törədilən işgəncə üçün xüsusi cinayət cəzasını təyin etməyə vadar etmişdir.

Kanadanın Cinayət Məcəlləsi Dövlət subyektləri tərəfindən işgəncə törədənləri cavabdehliyə cəlb edir. Məişət zorakılığı halları kimi özəl şəxslər tərəfindən törədilən eyni işgəncə əməllərindən fərdi şəxslər zərər çəkdikdə bu şəxslər işgəncə cinayəti üçün məsuliyyətə cəlb olunmur.

2012-ci ilin aprel ayında KUQF İşgəncə əleyhinə Komitəyə (İƏK) qeyri-rəsmi məruzə təqdim etmişdir. KUQF üzvləri Komitənin Cenevrədə keçirilmiş may sessiyasında iştirak etmişlər. "Biz eşitdik ki, Komitə Kanada Hökumətinin nümayəndələrinə bəyan etmişdir ki, qeyri-Dövlət subyektləri tərəfindən işgəncə əməlləri törədildikdə gender əsaslı zorakılığın bəzi formaları işgəncənin təzahürü olub, İşgəncə və Digər Qəddar, Qeyri-İnsani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəza əleyhinə Konvensiyaya aid edilir. Bu, gender bərabərliyi, qeyri-Dövlət subyektləri tərəfindən törədilən işgəncəyə məruz qalmamaq üçün qadın və qızların ayrılmaz insan hüquqları xeyrinə olan qələbə idi. İƏK-in yekun qeydi bizim üçün böyük bir sıçrayış olmuşdur ki, biz də öz işimizdə bundan yararlana bildik", deyə KUQF-nın iki üzvü şərh etmişdir. Komitənin Yekun Qeydlərinin davamı olaraq, KUQF Qadınların Statusu üzrə Komissiyaya yazılı bəyanat təqdim etmiş, özəl subyektlər tərəfindən törədilən işgəncə və pis rəftar haqda İƏK-in yekun qeydinə əsaslanaraq, Kanadanın UDİ üçün müraciətin verilməsini dəstəkləmişdir.

İnsan hüquqları mexanizmlərinin iş dövrünün əvvəlki mərhələlərində iştirak edən və ya etməyən VCİ-lər aşkar etmişlər ki, insan hüquqları sahəsində onların öz məqsədləri ilə əlaqədar olan mövcud tövsiyə və əldə edilən məlumatların müəyyən edilməsi ilə onların prioritetləşdirilməsi real icra planlarının hazırlanması baxımından mühüm addımdır.

VCİ-lər tövsiyələrin **prioritetləşdirilməsi üçün müxtəlif meyarlar** toplusundan istifadə edə bilər, məsələn:

- Həmin VCİ-ləri gücləndirən insan hüquqları mexanizmi və ya qurumu tərəfindən verilən tövsiyələr;
- VCİ-nin iş planlarına real olaraq inteqrə edilə biləcək və onların məqsəd və fəaliyyətinə uyğun olan tövsiyələr;
- İnsan hüquqları sahəsində qanunvericiliyin şərhi və tətbiqində yeni tərəqqiyə nail olan tövsiyə və tapıntılar;
- Həyata keçirilməsi bir sıra faktorlarla xarakterizə oluna bilən tövsiyələr (məsələn, həyata keçirilməsi üçün Dövlət tərəfindən prioritetləşdirilən; beynəlxalq icmanın təzyiqi və/və ya yardımı; resursların mövcud olması);
- Vətəndaş cəmiyyətinin digər tərəflərlə koalisiyada işləyib icrasını izləyə biləcəyi tövsiyələr;
- Həyata keçirilməsi VCİ tərəfindən qiymətləndirilə bilən tövsiyələr;
- VCİ fəaliyyəti olmadan etinasızlıq göstərilə biləcək tövsiyələr; və
- Xüsusilə vətəndaş cəmiyyətinə ünvanlanan tövsiyələr, məsələn, Xüsusi Məruzəçinin insan hüquqları müdafiəçilərinin vəziyyətinə dair müdafiəcinin icmasına ünvanlanan tövsiyələri.

**Gender və cinsi mənsubiyyət əsasında qeyri-ayrı-seçkilik mövzusunda UDİ tövsiyələrinin prioritetləşdirilməsi**

UDİ tövsiyələrinin prioritetləşdirilməsi və ilkin iş planının hazırlanmasının aşağıdakı kimi xülasəsi verilə bilər:

| UDİ tövsiyəsi | Prioritetləşdirilmişdir | Monitorinq növü və əsas tədbirlər | Cavabdeh təşkilat(lar) və resurslar | Vaxt çərçivəsi | Göstəric(lər) |
|---|---|---|---|---|---|
| Cinsi orientasiya və gender mənsubiyyətinin ayrı-seçkilikdə qadağan edilmiş əsas olaraq qəbul edilməsi məqsədilə ayrı-seçkiliyə qarşı hüquqi müdafiənin gücləndirilməsi. | Bəli. VCİ və beynəlxalq icma tərəfindən çağırış olmasa, Hökumətin əhəmiyyət verməyə biləcəyi mühüm imkan | Vəkillik. Parlament üzvlərinin lobbiçiliyi. Qanunvericilik layihəsinin hazırlanmasında iştirak. Kampaniya | LGBT təşkilatları digər VCİ ilə birgə tərəfdaşlıqda. Cari fəaliyyətin bir hissəsi. | Növbəti 4 il. | Qeyri-ayrı-seçkilik haqqında qanunvericilikdə cinsi orientasiya və gender mənsubiyyəti ayrı-seçkilikdə qadağan edilmiş əsaslar |
| Homoseksual, biseksual və transseksual şəxslərə qarşı dözümlülüyü artırmaq üçün ictimai məlumatlandırma kampaniyalarını başlamaq və ya onlara qoşulmaq. | Bəli. Yuxarıda bax. | Kampaniyada iştirak etmək. Gənclər, geniş ictimaiyyət və hüquq mühafizə orqanlarını əhatə etməyi təklif etmək. Kampaniyada iştirak etmək Hədəf mühit: orta məktəblər, universitetlər, idman klubları, polis təlim mərkəzləri. | LGBT təşkilatları digər VCİ ilə birgə tərəfdaşlıqda. Əlavə resurslar | Növbəti 4 il | Kampaniyanın keçirilməsi. Əhali arasında maraqlı dairələr |
| Gender bərabərsizliyi məsələsi | Xeyr. Yetərincə qeyri-dəqiq ifadə olunub. | | | | |

| UDİ tövsiyəsi | Prioritetləşdirilmişdir | Monitorinq növü və əsas tədbirlər | Cavabdeh təşkilat(lar) və resurslar | Vaxt çərçivəsi | Göstəric(lər) |
|---|---|---|---|---|---|
| Gender məsələləri və qadınlara qarşı ayrı-seçkiliklə əlaqədar qurumları və preventiv siyasətləri gücləndirməyə davam etmək. | Bəli. Hökumətə daha çox resursla bərabər qurumları gücləndirmək tövsiyə edilməlidir. | Monitorinq və vəkillik. Bərabər imkanlar üçün Nazirliyə ayrılmış büdcə resurslarının monitorinqi. Nazirlik tərəfindən təklif olunan və Hökumət tərəfindən nəzərə alınıb, həyata keçirilən təşəbbüslərin monitorinqi. | Qadınlar təşkilatı digər VCİ ilə tərəfdaşlıqda. Cari fəaliyyətin bir hissəsi. Büdcə monitorinqi üzrə əlavə ekspert səriştəsi zəruridir. | Növbəti 4 il | Bərabər imkanlar üçün Nazirliyə ayrılmış büdcə resurslar. Nazirlik tərəfindən təklif olunan və Hökumət tərəfindən nəzərə alınan |
| CEDAW ilə uyğunluğu təmin etmək və qadınlara qarşı ayrı-seçkilik mahiyyətli müddəaları aradan qaldırmaq üçün ən son hüquqi islahatların icrasını önə çəkmək. | Bəli. Ayrı-seçkiliyiə yol verməyən qanunların vaxtı gəlib! | Qanunvericiliyin monitorinqi. legislation. CEDAW-nun yekun müşahidələrinin izləmə prosesinin tərkib hissəsi olaraq. | Qadın təşkilatları digər VCİ-lərlə tərəfdaşlıqda. Cari fəaliyyətin bir hissəsi olaraq. | CEDAW üzrə növbəti hesabat. | CEDAW-nun müəyyən etdiyi ayri-seçkilik müddəalardan qaldırıblar. |
| Qadınlarla kişilər arasında maaş fərqini aradan qaldırmaq üçün məqsədli tədbirlər həyata keçirmək. | Xeyr, lakin VCİ-lər tərədfindən dəstəklərin. İzləmə VCİ-lərın səlahiyyətindən kənardadır. | | | | |

| UDİ tövsiyəsi | Prioritetləşdirilmişdir | Monitorinq növü və əsas tədbirlər | Cavabdeh təşkilat(lar) və resurslar | Vaxt çərçivəsi | Göstəric(lər) |
|---|---|---|---|---|---|
| Qadınlara qarşı zərərli mədəni təcrübələri və ayri-seçkilik mahiyyətli stereotipləri aradan qaldırmaq üçün vətəndaş cəmiyyəti ilə əməkdaşlıqda təfsilatlı strategiyanı yaratmaq. | Bəli. Koalisiya tərəfindən prioritetləşdirilib və tövsiyələr vətəndaş cəmiyyətinin xüsusi rolunu nəzərdə tutur. | Strategiyanın inkişafında iştirak etmək. | Qadın təşkilatları BMT-nin Qadın təşkilatı ilə tərəfdaşlıqda. | Bir il | Strategiyanın qəbulu. |
| Uşaq hüquqlarının müdafiəsi ilə məşğul olan müxtəlif təşkilatlar arasında əlaqələndirməni qaldırılması üçün səyləri gücləndirmək. | Xeyr. İştirak edən VCİ-ların fəaliyyət dairəsindən kənardır. | | | | |

## 4.5. Tövsiyələrin həyata keçirilməsinin monitorinqi

Dövlət tərəfindən tövsiyələrin həyata keçirilməsinin monitorinqi Hökumətin cavabdehliyini təmin etmək baxımından vətəndaş cəmiyyətinin yerinə yetirdiyi mühüm fəaliyyətdir. Bununla bağlı VCİ-nin rolu Dövlətin insan hüquqları üzrə konkret sazişi ratifikasiya edib-etməməsi, ölkəyə səfər etmək üçün xüsusi prosedurlara dəvət göndərib-göndərməməsi, qeyri-ayrı-seçkilik haqqında qanun qəbul edib-etməməsi barədə məlumat verməkdən və ya müxtəlif mənbələrdən və bir neçə yerdən böyük sayda məlumatların toplanması və onların təsdiqlənməsi daxil olmaqla kompleks monitorinq proseslərinin aparılmasından, razılaşdırılmış vaxt müddətində göstəricilər və müqayisə üçün meyarlarla bağlı məlumatların təhlil edilməsindən ibarət ola bilər. Əsas odur ki, əldə edilən məlumatlar dəqiq və etibarlı olsun. Əldə edilən məlumatlar milli Hökumətlə vəkillik fəaliyyətində əsas kimi xidmət edə bilər, məsələn, İnsan Hüquqları Şurasına şifahi məlumat kimi saziş qurumlarının növbəti icmalı üçün UDİ-nın ikinci və ya üçüncü dövründə insan hüquqları mexanizmlərinə sənədlərin verilməsi şəklində hazırlana bilər. İHAK-nın insan hüquqlarının monitorinqi üzrə Təlimatlarında[5] insan hüquqları ilə bağlı narahatlıq doğuran məsələlərin qiymətləndirilməsi və onların aradan qaldırılması üçün informasiyanın fəal şəkildə toplanması, yoxlanması, təhlili və istifadəsi kimi monitorinq metodologiyasına dair təfərrüatlı məsləhətlər verilir. Bu tərifə əsasən monitorinq uzunsürən vaxt müddətində aparılır. Bütün monitorinq prosesi insan hüquqlarının monitorinq dövrü kimi də tanınır (aşağıda bax).

### Monitorinq dövrü




[5] Mənbə: İnsan hüquqlarının monitorinqi üzrə təlimat (Birləşmiş Millətlər Təşkilatının nəşri HR/P/PT/7/Rev.1).

**Honq Konqda seçki məntəqələrində informasiya və materiallara əlyetərliyin monitorinqi**

Çin, o cümlədən Honq Konq Əlilliyi olan Şəxslərin Hüquqlar Komitəsi (CRPD) tərəfindən 2012-ci ilin sentyabr ayında icmal edilmişdir. Seçilmiş Hakimiyyət təşkilatından müstəqil vəkillər qrupu CRPD -nın 7 və 8-ci sessiyalarında iştirak etmiş, Hökumətin onların hüquqlarını necə qoruduğu haqda məlumat vermiş və bu təcrübədən Honq Konqda vəkillik fəaliyyəti zamanı istifadə etmişlər. Seçilmiş Hamiyyət Asiyada öyrənmə qabiliyyəti müxtəlif olan şəxslər tərəfindən idarə olunan ilk özünü müdafiə və özünə yardım təşkilatıdır. Cenevrədə ilk dəfə Komitəyə üz tutmuş əqli əlilliyi olan şəxslər iştirak etmişlər.
Məsələlər siyahısının qəbul edildiyi 7-ci sessiya zamanı Seçilmiş Hakimiyyət seçki məntəqələrində əqli əlilliyi olan şəxslər üçün informasiya və materiallara çıxışın, onların seçdiyi şəxsin yardımı ilə seçki kabinəsinə getmək hüququ üçün təklif vermişlər. Onlar 2012-ci ilin iyul ayında Qeydiyyat və Seçki İdarəsinin rəsmiləri ilə görüşmüş, bu məsələləri, eləcə də kor və ya görmə qabiliyyəti zəif olan şəxslər üçün səsvermənin müyəssər olmadığını, müəssisələrdə yaşayan şəxslərin səs vermək imkanında olmamasını, “ruhi xəstəlik səbəbiylə qabiliyyətsiz” hesab edilən şəxslərin səsvermək hüququndan məhrum olmasını müzakirə etmişlər.
2012-ci ilin sentyabr ayında seçkilər keçirilmiş, Seçilmiş Hakimiyyət seçkilərin bir sıra aspektləri üzrə monitorinq keçirmişdir. Onlar aşkar etmişlər ki, seçkilərin internet səhifələrinə çıxış olmamış, seçki məntəqələrində “asanlıqla oxunan” səsvermə təlimatlarını açmaq üçün uzun müddət gözləməli olmuşlar, bəzən isə seçki məntəqələrində onların müstəqillik və məxfiliyinə tam şəkildə hörmət bəslənmədən yardımın göstərildiyini hiss etmişlər.
Əlilliyi olan şəxslərin təşkilatlarının və VCİ-ların koalisiyada birləşməsi üçün səfərbər edilməsi CRPD Komitəsinin icmal prosesində iştirak etmənin müsbət nəticəsi olmuşdur ki, bu da daha geniş vətəndaş cəmiyyətində əlillik məsələlərinin əsas istiqamətə çevrilməsinə yardım etmişdir. Honq Konqda bu təşkilatlar birgə işləmiş, Honq Konqla bağlı məsələlər siyahısı ilə İnsan Hüquqları Komitəsinə müraciət etmişdir ki, burada onların bərabər iştirakı baxımından zəruri dəyişikliklərin edilməsi üçün hökumətə göstərilən təzyiqi artırmaq məqsədilə siyasi iştirak üçün onların hüquqları ilə bağlı məsələ qaldırmışlar.

**Tövsiyələrin həyata keçirilməsinin monitorinqi üçün insan hüquqları göstəricilərindən istifadə**

Düzgün və şəffaf metodologiyalar əsasında kəmiyyət və keyfiyyət göstəriciləri tövsiyələrin həyata keçirilməsinin monitorinqi zamanı istifadə edilə bilər.
Məsələn, cinsi və reproduktiv səhiyyə üzrə qanunun qəbul edilməsi ilə verilən tövsiyələrin həyata keçirilməsini yoxlamaq üçün göstəricilər qanunun qüvvəyə minməsi tarixi və onun əhatə dairəsi ola bilər.
Bu sahədə digər tövsiyə "ölkədə təhlükəsiz və mümkün kontraseptiv vasitələrə əlyetərliyi artırmaqla cəhdləri davam etdirmək" ola bilər.
Kontraseptiv vasitələrdən istifadə edən qadınların və ya onların partnyorlarının nisbətinə dair göstərici iştirakçı tərəflərə tövsiyənin həyata keçirilməsi səviyyəsini qiymətləndirmək imkanı verəcəkdir. Kontraseptiv vasitələrdən istifadəyə dair məlumatlar ölkə səviyyəsində reprezentativ sorğudan istifadə etməklə Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu tərəfindən hazırlanır.
Göstəricilər üçün məlumatlar toplanarkən vəziyyətin ayrı-seçkiliklə bağlı aspektlərini əhatə etmək üçün təfərrüatlı məlumatların olması mühümdür. Natamam siyahıda, hər kontekstdə nələrin müvafiq və mümkün olduğundan asılı olaraq, göstəricilər irq, rəng, cins, yaş, dil, din, siyasi və ya digər mövqe, milli və ya sosial mənşə, əmlak, doğum, fiziki və ya ruhi əlillik, səhiyyə vəziyyəti (o cümlədən HİV/QİÇS), cinsi orientasiya, mülki, siyasi və ya digər status əsasında bölünə bilər. Müvafiq göstəricilər müəyyən edildikdən sonra Dövlətlərin tövsiyələrlə bağlı öhdəlik götürüb, onları yerinə yetirmələri üçün müqayisəli meyarlar müəyyən etmək faydalı olar.
**Social Watch[6] və İqtisadi və Sosial Hüquqlar Mərkəzi[7]** tövsiyələrə əməl olunmasının monitorinqi üçün göstəricilərdən istifadə sahəsində əhəmiyyətli təcrübəyə malik olan təşkilatlardır.[8]

## 4.6. Təkan verən qüvvədən istifadə

BMT-nin insan hüquqları mexanizmi və ya xüsusi prosedur mandatı sahibinin səfəri ilə ölkədə insan hüquqları sahəsindəki vəziyyətin icmalı çox zaman aşağıdakı kimi hərəkətverici qüvvəyə səbəb ola bilər:

- İnsan hüquqları ilə bağlı vəziyyətə medianın əvvəllər görünmədiyi şəkildə diqqət göstərməsi;
- Mərkəzi və yerli səviyyələrdə insan hüquqları sahəsində bəzi problemlərin ünvanlanmasında Dövlət qurumlarının açıq olması;

---

6 www.socialwatch.org
7 www.cesr.org
8 Göstəricilərə dair əlavə məlumat üçün, İnsan Hüquqları Göstəricilərinə - Qiymətləndirmə və İcra üçün Təlimata baxın (Birləşmiş Millətlər Təşkilatının nəşri, HR/PUB/12/5).

- Hökumətdə vətəndaş cəmiyyəti ilə dialoq başlamağa hazır olan yeni müsahiblər;
- İnsan hüquqları sahəsində tərəqqi əldə etmək üçün tədbirlərin görülməsi baxımından stimulun yeniləşməsi;
- İnsan hüquqları üzrə standartlara uyğun qanunvericiliyin qəbul edilməsi üçün siyasi iradənin nümayiş etdirilməsi;
- Bu sahədə işləmək üçün yeni resursların mövcud olması; və
- İcmal üçün tərəfdaşlıqlar və ya koalisiyaların yaradılması və ya gücləndirilməsi.

VCİ-ları insan hüquqları mexanizmlərinin fəaliyyəti ətrafında hərəkətverici qüvvənin yaradılmasında və insan hüquqlarının daha yaxşı qorunması məqsədilə strategiyaların təşviq edilməsi üçün belə imkanların istifadə edilməsində mühüm rol oynaya bilər.

## 4.7. Koalisiyaların qurulması və onlarla iş

VCİ koalisiyaları vasitəsilə insan hüquqları mexanizmlərinin işində iştirak çox zaman müsbət nəticələr vermişdir. Buna aşağıdakı misallar daxildir:

- Tövsiyələrin Koalisiya tərəfindən müəyyən edilmiş prioritetləri əks etdirməsi ehtimalı ilə insan hüquqları mexanizmlərinə daha əhatəli sənədlərin təqdim edlməsi.
- Daha səmərəli iştirakla və monitorinqlə nəticələnən ixtisas, resurslar və təcrübəyə uyğun olaraq koalisiyanın üzv təşkilatları arasında əmək bölgüsü (məs., bəzi təşkilatlar vəkillik və ya məlumatlandırmanın artırılmasına, digərləri monitorinqə, məlumatların, o cümlədən texniki məlumat və informasiyanın toplanması və təhlil edilməsinə diqqət yönəldəcək, digərləri insan hüquqlarının pozulmasının qurbanlarına yadım göstərəcək, onların səsinin və ifadələrinin eşidilməsinə kömək edəcəkdir).
- VCİ-lar arasında daha yaxşı iş münasibətləri, əməkdaşlıq və vəhdətlik. Bu, xüsusilə də VCİ-lər təhlükəyə məruz qaldıqda mühüm əhəmiyyət daşıyır.
- İnsan hüquqları mexanizmləri, Dövlət qurumları və digər iştirakçı tərəflərlə (məs., diplomatik missiyalar, milli insan hüquqları qurumları) üzbəüz mesaj və məqsəd vəhdətliyi ilə koalisiyanın nüfuz və etibarının artması.
- Kiçik VCİ-ların məsələləri koalisiyalar vasitəsilə ötürüləndə daha çox diqqət cəlb edir.

### VCİ Koalisiyası Filippin adalarında UDİ vasitəsilə işgəncənin aradan qaldırılması istiqamətində tərəqqi əldə edir

Tibbi Fəaliyyət Qrupu (TFQ) Filippin adalarında UDİ üçün Vətəndaş Cəmiyyətinin Birgə Hesabatının hazırlığında iştirak etmişdir. 2012-ci ilin may ayında UDİ keçirilməzdən əvvəl VCİ koalisiya üzvləri Manilada təxminən 20 səfirliyin iştirak etdiyi diplomatik brifinq təşkil etmişlər. Cenevrədə onlar öz narahatlıqları barədə məlumatlandırmanı artırmaq üçün 16 diplomatik missiya ilə görüş keçirmişlər. "Biz hər məsələ üzrə bir səhifəlik informasiya vərəqəsində konkret və dəqiq şəkildə öz prioritet narahatlıqlarımızı bildirdik", deyə koalisiya üzvləri bildirdi. "Hesabatın verilməsində və UDİ prosesində hökumətlərin lobbiçiliyində VCİ-lərin koalisiyası kimi yüksək dəyərli işin nəticəsində daha müvafiq tövsiyələr verilmişdir. Bu, həm də onların yerinə yetirilməsinin monitorinqi və bu istiqamətdə hökumətlə fəal işləməyimiz üçün şərait yaratdı."
TFQ və İşgəncəyə Qarşı Birgə Koalisiya (İQBK) – Filippində hazırda işgəncənin qarşısının alınmasında öz işini dəstəkləmək üçün UDİ tövsiyələrindən istifadə edir. "Biz işgəncənin tibbi aspektlərinin ictimaiyyət üçün açıq olmasına yönələn monitorinq işimizdə və vəkillik fəaliyyətimizdə UDİ tövsiyələrindən istifadə edirik, buraya İstanbul Protokoluna əsaslanan sənədlər, işgəncədən sağ qalanlar və onların ailələri üçün bərpa proqramının qurulması daxildir. Filippin adalarında işgəncənin qarşısının alınması hərəkatının potensial quruculuğunda UDİ tövsiyələrinin səmərəni artıran təsirləri vardır" deyə TFQ nümayəndəsi yekunlaşdırdı.

### İsveçrədə iqtisadi, sosial və mədəniyyət hüquqlarına dair tövsiyələrin yerinə yetirilməsi üçün yol xəritəsi

Suisse Romande sur les droits économiques, sociaux et culturels Koalisiyası İqtisadiyyat, Sosial və Mədəniyyət Hüquqları Komitəsinin İsveçrəyə dair yekun qeydlərinin monitorinqini başlamışdır. Qurum yekun qeydlərdə əks edilmiş müxtəlif sahələrdə ixtisaslaşmış VCİ-ləri dəvət etmişdir ki, məqsəd tövsiyələrin hər birinə əməl etmək üçün nələrin tələb oluna biləcəyinin izah edilməsinə töhfə etmək olmuşdur. Bütün ideyalar konkret təlimatlarda toplanmışdır ki, onlar da Hökumət rəsmilərinə ötürülmüş və dəyirmi masa ətrafında müzakirə edilmişdir.

Təcrübə onu göstərir ki, koalisiyalarla işləmək adətən yaxşı nəticələr verir, eyni zamanda keçmişin təcrübəsi aşağıdakılar daxil olmaqla birgə çətinliklərin bəzilərini də müəyyən etmişdir:

- İşin əlaqələndirilməsinə cəlb olunan resurslar və sərf olunan vaxt.
- Prioritet və rolların razılaşdırılması.
- Koalisiyanın hərəkətverici qüvvəsinin və məqsədyönlüyünün qoruyub saxlanması.
- Bəzi məsələlərin həllində həmrəyliyin əldə edilməsi tələb oluna bilər.

### Yaponiyada irqi ayrı-seçkiliyə qarşı mübarizə

2005-ci ildə irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və əlaqədar dözülməzliyin müasir formaları üzrə Xüsusi Məruzəçinin səfərindən sonra 2007-ci ildə Yaponiyanın İrqi Ayrı-Seçkiliyin aradan qaldırılması Şəbəkəsi QHT-si (ERD Net) yaradılmışdır. Ayrı-Seçkilik və İrqçiliyin Bütün Formalarına qarşı Beynəlxalq Hərəkatın dəstəyi ilə ERD Net Yaponiyada İrqi Ayrı-Seçkiliyin aradan qaldırılması üzrə Beynəlxalq Konvensiyanın icrası üçün fəaliyyət göstərmişdir. ERD Net İrqi Ayrı-Seçkiliyin Aradan Qaldırılması üzrə Komitəyə Yaponiya haqqında qeyri-rəsmi hesabat təqdim etmişdir. 2010-cu ilin fevral ayında ERD Net nümayəndə heyəti sessiyada iştirak etmiş, CERD üçün brifinq təşkil etmişdir. CERD-nin yekun qeydləri əsasında avqust 2010 və iyun 2012 arasında o, hökumətlə bir sıra məsləhətləşmələr aparmış, parlament üzvləri ilə seminarlar təşkil etmişdir. “Bu fəaliyyət bizə imkan verir ki, həm BMT, həm də ölkə səviyyələrində öz vəkillik səriştəmizi qüvvətləndirək” deyə ERD Net-in üzvü dedi. “Təcrübə bizə imkan vermişdir ki, daha çox fəal olmaq istədiyimiz digər sahə kimi medianı müəyyən edək. Beynəlxalq mexanizmlərin Yaponiyada insan hüquqları ilə bağlı vəziyyəti necə icmal etdiyi məsələsinə medianın daha çox diqqət göstərməsi sözsüz ki, faydalı olacaqdır”.

## 4.8. Tərəfdaşlıq

Monitorinq və insan hüquqlarının həyata keçirilməsi istiqamətində tərəfdaşlarla iş strateji dəyərə malik ola bilər.

Keçmişin təcrübəsi göstərmişdir ki, BMT-nin insan hüquqları proseslərində iştirak etməklə VCİ-lər arasında yeni tərəfdaşlıqlar və proseslər üçün imkanlar açıla bilər. Bu imkanlardan istifadə və bu tərəfdaşlıqların əksəriyyətinin qurulması ilə əldə edilən nəticələrin sayı arta bilər. Tərəfdaşlıqlar qurularkən tərəfdaşların müxtəlifliyi bütün perspektivlərin nəzərə alınması baxımından vacibdir.

Tərəfdaşlarla bir çox səviyyədə iş aparıla bilər: onlardan bəziləri eyni məqsədləri bölüşə bilər, bəzilərinin resurslar, xüsusi səriştə və ya geniş əlaqə şəbəkəsi ola bilər; digər səlahiyyətli orqanlar ola bilər və ya onlara təsir edə bilər.

Əsas iştirakçıların onların verə biləcəyi töhfə, o cümlədən risklər və həmlələr strategiyanın hazırlanması və rolların müəyyən edilməsi üçün bazadır. Natamam siyahıda VCİ-lərin müxtəlif tərəfdaşlıq formaları və aşağıdakılarla əməkdaşlıq sahəsində təcrübəsi vardır:

- Müxtəlif səviyələrdə və müxtəlif tematik sahələrdə VCİ-lər – icma əsaslı təşkilatlardan milli və beynəlxalq VCİ-lərədək;
- Donorlar və diplomatik icma;
- Media;
- Həmkarlar İttifaqı və peşəkar assosiasiyalar;
- Tematik şəbəkələr;
- Dövlət strukturları, o cümlədən Parlament və Parlamentin müvafiq komissiyaları;
- Ölkə səviyyəsində insan hüquqları qurumları;
- Beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT və İHAK yerdə iştirakı;
- Elmi müəssisələr; və
- İnsan hüquqları mexanizmləri.

- Tematik şəbəkələr;
- Dövlət strukturları, o cümlədən Parlament və Parlamentin müvafiq komissiyaları;
- Ölkə səviyyəsində insan hüquqları qurumları;
- Beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT və İHAK yerdə iştirakı;
- Elmi müəssisələr; və
- İnsan hüquqları mexanizmləri.

**Nepalda uşaq hüquqlarını qorumaq və təşviq etmək üçün tərəfdaşların səfərbər edilməsi**

Nepalda Save the Children təşkilatı UDİ üzrə 138 VCİ-na təlim keçmişdir. Təşkilat iştirakçı tərəflərin verdiyi ərizələri dəstəkləmiş, ölkə və beynəlxalq səviyyələrdə aparılan təbliğat fəaliyyətini əlaqələndirmişdir. Nəticədə UDİ-nin yekun sənədində uşaq hüquqları ilə bağlı 34 tövsiyə verilmiş, onlardan 31 Nepal Hökuməti tərəfindən qəbul edilmişdir.
Save the Children UDİ-nin monitorinqi strategiyasını ölkə səviyyəsində müxtəlif iştirakçı tərəflərin, o cümlədən vətəndaş cəmiyyəti şəbəkələrinin, Milli İnsan Hüquqları Komissiyasının, səfirliklər və medianın səfərbər edilməsi ətrafında qurur, məqsəd UDİ prosesində milli iştirakı artırmaq, cəlbolunma və cavabdehliyi qüvvətləndirməkdir.
UDİ Nepalda VCİ-ların fəaliyyətini birgə gündəlik ətrafında toplamaq baxımından həlledici olmuşdur. Hökumət rəsmiləri və səfirliklərlə yüksək səviyyədə ikitərəfli və kollektiv təbliğat görüşləri keçirilmiş və media vasitəsilə məlumatlandırma artırılmışdır, o cümlədən TV müsahibələri və UDİ üzrə mətbuatda məqalələr verilmişdir. UDİ-nin uşaqlarla əlaqəli konkret tədbirlərlə, məsələn Uşaq Hüquqları Günü ilə bağlı olması medianın diqqətini çəkmişdir ki, bu da xüsusilə səmərəli olmuşdur.
Save the Children təşkilatı milli uşaq koalisiyaları ilə əməkdaşlıqda Milli İnsan Hüquqları Komissiyasının UDİ tövsiyələrinin monitorinqi və izlənməsini öz səlahiyyətlərinə daxil etmək üçün onun təşviq edilməsi baxımından vacib olmuşdur. MİHK icranın vəziyyətinə dair rəsmi və etibarlı informasiyanı təmin etmək üçün vacib rola malikdir.
Monitorinq istiqamətində əlaqələndirilmiş səylərin nəticəsi olaraq “uzun müddət gözlənilən uşaq siyasəti qanunvericiliyinin, o cümlədən Uşaq Hüquqları Aktı, Təhsil Qaydaları, Uşaqların Qorunması Siyasəti və uşaq baxçaları üçün minimum standartlara” dair 108.4 saylı UDİ tövsiyəsi qismən həyata keçirilmişdir. Həm Milli Uşaq Siyasəti, həm də uşaq baxçaları üçün hərtərəfli standartlar 2012-ci ildə qəbul edilmişdir. Kabinet həm də Uşaq Hüquqları Qanununu qəbul etmişdir.

Tərəfdaşlarla iş sxemin hazırlanması vizual şəkildə təqdim edilə bilər. Məsələn, yuxarıda təsvir edilən Nepalın təcrübəsi aşağıdakı qrafiklə vizuallaşdırıla bilər.

## Nepalda uşaq hüquqları sahəsində tərəfdaşların səfərbər edilməsi




## 4.9 Məlumatın yayılması və məlumatlandırmanın artırılması

İnsan hüquqları mexanizmlərinin əldə etdiyi məlumatlar və tövsiyələrin yayılması və onlar barədə məlumatlandırmanın artırılması Dövlətlərin insan hüquqları sahəsindəki öhdəliklərinin icrasının təşviqi baxımından faydalı vasitələrdir.

Bir çox hallarda hüquqları həyata keçirmək mümkün olur, çünki daha çox hüquq sahibi öz hüquqlarını tanıyır və onları tələb edir və ya müvafiq qurumlar insan hüquqları ilə bağlı öhdəliklərin yerinə yetirilməsi üçün onlar tərəfindən hansı tədbirlərin görülməsinin tələb olunduğunu bilir. Məlumatlandırmanın artırılması ilə insan hüquqları sahəsində bilikdə boşluqların aradan qaldırılması və ya azaldılması və insan hüquqları haqqında məlumatların yayılması hüquqların həyata keçirilməsini təşviq etmək baxımından səmərəli yollardır.

Yerli dillərə tərcümədən tutmuş media və sosial media kampaniyalarının müxtəlif formalarınadək VCİ-lar insan hüquqları mexanizmlərinin əldə etdiyi məlumatların və tövsiyələrin yayılmasında təşəbbüslü və kreativdirlər. Məlumat yayımı planlarına hər zaman əlilliyi olan şəxslər üçün material və informasiyanı əlyetərli olması məsələsi daxil edilməlidir.

### İşgəncənin qarşısının alınması üzrə Alt Komitənin Braziliyaya verdiyi tövsiyələri ictimaiyyətə açıqlamaq üçün "İnformasiya Aktına Çıxış"dan istifadə

İşgəncələrin qarşısının alınması üzrə Alt-Komitə (SPT) 2011-ci ildə Braziliyaya ilk səfəri zamanı ölkənin penetensiar müəssisələrində işgəncə və pis rəftarla bağlı vəziyyəti yoxlamışdır. SPT sonradan Braziliya Hökumətinə hesabat hazırlamış, ölkədə işgəncə təcrübəsi ilə bağlı tövsiyələr vermişdir. İşgəncə və Digər Qəddar, Qeyri-İnsani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəzaya qarşı Konvensiyanın Fakultətiv Protokoluna əsasən (OPCAT) hesabat yalnız hökumətin qərarı ilə açıqlana bilər. Vətəndaş cəmiyyətinin müraciətlərinə baxmayaraq, hesabat məxfi saxlanmışdır.

May 2012-ci il tarixində Braziliya İctimai İnformasiyaya Çıxış Aktını qəbul etmişdir. Qanun qüvvəyə minən gün Conectas Direitos Humanos (Conectas) SPT hesabatını açıqlaması və əlyetərli etməsi üçün Braziliya Hökumətinə müraciət etmişdir. Aktda müəyyən edilmiş son müddət çərçivəsində Braziliya Hökuməti müraciətə cavab vermiş, hesabatı və tövsiyələri, o cümlədən Portuqal dilinə tərcüməsini İnsan Hüquqları Nazirliyinin internet səhifəsində yerləşdirmişdir.

Conectas hesab etmişdir ki, SPT hesabatı ana dilində açıqlanmalıdır. Bu olmadan vətəndaş cəmiyyəti iştirakçıları və digər iştirakçı tərəflər SPT tövsiyələrinin həyata keçirilməsini izləyə bilməzdilər. "Ölkədə işgəncənin tətbiq olunması ilə bağlı ciddi vəziyyət barədə məlumatlandırmanı artırmaq üçün bu, fundamental addım oldu. Səmərəli preventiv siyasətlərin olmaması və ilk olaraq günahkarların cavabdehliyə cəlb olunmaması nəticəsində Braziliyada işgəncənin davam etdiyini hesab etsək, İnformasiyaya Çıxış haqqında Qanun səmərəli metod olmuşdur ki, SPT qiymətləndirməsinin aparılmasını təmin etmişdir. İndi isə işgəncə əleyhinə mübarizədə bütün müvafiq iştirakçı tərəflər ondan geniş şəkildə istifadə edə bilər", Conectas şərh etmişdir.

### İrlandiyada İşgəncə əleyhinə Komitənin sessiyasının internetlə yayımlanması

2011-ci ildə İrlandiyanın Mülki Azadlıqlar Şurası (İCCL) İrlandiyanın Cinayət Hüququ İslahat Fondu (İPRT) ilə İrlandiyanın ilk dəfə BMT-nin İşgəncə Əleyhinə Komitəsi (CAT) qarşısına çıxması üçün birgə qeyri-rəsmi hesabat hazırlamışlar. İşgəncə Qurbanları üçün Beynəlxalq Reabilitasiya Şurası (İRCTV) ilə birlikdə İCCL və İPRT CAT sessiyasının ilk canlı internet yayımlanmasını təşkil etmişdir ki, bu da İrlandiyada bir sıra VCİ-lər və qanunla müəyyən edilmiş orqanlar tərəfindən yayımlanmışdır.

"Biz qeyri-rəsmi hesabatı və CAT tövsiyələrini geniş şəkildə yaydıq, ən böyük qəzetlərdə və radioda işıqlandırdıq. Axşam saatlarında ictimai işlər üzrə şouda bizim internet yayımımızdan videoyazı verildi. İlk dəfə İrlandiya cəmiyyəti BMT-nin saziş qurumunu iş zamanı seyr etdi" İCCL nümayəndəsi söylədi.

İrlandiyanın CAT qarşısında çıxması və tövsiyələrin yerinə yetirilməsi İrlandiyada

mütərəqqi dəyişikliyə töhfə verdi. Təcridxanalarda islahatlar ən yüksək siyasi profilə malik olmuş, Cinayət Hüququ Strategiyasının İcmal Qrupu yaradılmışdır.[9] Komitə 12 ayda 4 konkret tövsiyəni, o cümlədən “Magdalene Laundries”də qadınların saxlanmasını səmərəli şəkildə araşdıra bilməyən Dövlətin uğursuzluğunu yoxlamaq üçün müraciət etmişdir. Fevral 2013-cü ildə Dövlətin “Magdalene Laundries”ə cəlb olunduğu haqda **rəsmi hesabat** dərc olunmuşdur.[10] O vaxtdan sonra Dövlət Magdalene qadınlarından rəsmən üzr istəmişdir, kompensasiya planı təşviq olunmuşdur.

### İnternetlə yayımlama və video görüntülər

İnsan Hüquqları Şurasının sessiyaları və Universal Dövrü İcmal BMT-nin **web TV**[11] vasitəsilə canlı yayımlanır və arxivləşdirilir. Vətəndaş cəmiyyəti saziş qurumlarının sessiyalarını çəkib, internetlə yayımlaya bilir. Cenevrədə əsaslanan QHT qrupu saziş qurumunun bütün sessiyalarının internetlə yayımlanmasını əlaqələndirir. www.treatybodywebcast.org.
İHAK tərəfindən hazırlanmış bir çox video görüntülər İHAK internet səhifəsindən və sosial mediadan əldə edilə bilər.[12]

## 4.10. Təşviqat fəaliyyəti

İnsan hüquqları sahəsində təşviqat fəaliyyəti insan hüquqlarının təmin edilməsini yaxşılaşdırmaq məqsədilə kommunikasiya kimi müəyyən edilə bilər. Təşviqatın səmərəli mesajları insan hüquqları ilə bağlı vəziyyət və narahatlıqlar barədə məlumat verir; məqsəd digərlərini **hərəkətə keçməyə inandırmaqdır.**

İnsan hüquqları üzrə səmərəli təşviqat mesajlarının xüsusiyyətləri:

- Yoxlanmış faktlar və rəqəmlərə əsaslanır
- Real həyatdan götürülmüş sosial misallardan ibarət olur
- Sadə və konkretdir
- Müvafiq dildən istifadə edilir (siyasi polemikadan daha çox insan hüquqları mühakimələrindən istifadə edilir; təhqiredici sözlərə yol verilmir)
- Etibarlı qasidlə ötürülür
- Aydın şəkildə hərəkətə çağırır
- Hədəf kütlələr üçün uyğunlaşdırılır
- Kontr-arqumentlərin qabağını alır

İnsan hüquqları mexanizmlərinin əldə etdiyi məlumat və tövsiyələr bu xüsusiyyətlərin bir sırasını yerinə yetirir. VCİ-lər təşviqatı daha səmərəli etmək üçün əldə olunan tapıntı və tövsiyələri müəyyən edib, onları prioritetləşdirir.

[9] Ədliyyə, Bərabərlik və Müdafiə Naziri tərəfindən çağırılmış Cinayət Hüququ Strategiyasının İcmal Qrupu 12 ekpertdən ibarət olmuş, ədliyyə, polis, probasiya xidmətlərini, penitensiar rəsmilərini təmsil etmişdir. Qrup prinsipial və davamlı cinayət hüququ sisteminin sonrakı inkişafına dair, o cümlədən İrlandiyanın beynəlxalq öhdəlikləri ilə bağlı tövsiyələr verir. Əlavə məlumat üçün bax www.justice.ie

[10] Hesabata çıxış www.justice.ie

[11] http://webtv.un.org/

[12] Sosial mediada OHCHR-a çıxş www.ohchr.org

## Tunisdə seçkilərdə əlilliyi olan şəxslərin iştirakı ilə bağlı təşviqat, məlumatlandırmanın artırılması və monitorinq

2011-ci ildə CRPD-nin Tunis üzrə yekun qeydlərinə ölkənin demokratik islahatına dair bir sıra tövsiyələr daxil olmuş, məqsəd əlilliyi olan şəxslərin yeni Konstitusiyanın hazırlanması prosesinə cəlb edilməsi, digərləri ilə bərabər əsaslarda seçmək və ictimai həyatda iştirak etmək hüquqlarının həyata keçirilməsi olmuşdur.
İnqilabdan sonra təsis edilmiş əlilliyi olan şəxslərin təşkilatı – Tunisdə Əlilliyi olan İnsanların Hüquqlarının Təşviqi Təşkilatı (Organisation tunisienne de défense des droits des personnes handicapées- OTDDPH) müxtəlif regionlarda məlumatlandırmanın artırılması üzrə bir sıra seminarlar keçirmiş, məqsəd növbəti seçkilərdə əlilliyi olan şəxsləri iştirak etməyə cəsarətləndirmək olmuşdur. Onun bir sıra üzvləri seçkilərdə rəsmi müşahidəçi kimi iştirak etmişdir ki, OTDDPH ölkədə 100-dən artıq seçki məntəqəsində işin gedişatını birbaşa müşahidə edə bilmiş, məqsəd seçkilərdə əlyetərlilik standartlarına göstərilən hörməti, eləcə də əlilliyi olan insanların iştirakını qiymətləndirmək olmuşdur.
Milli Qanunvericilik Məclisinin seçkilərindən sonra Tunisiyanın yeni Konstitusiyasının hazırlanması tapşırığı ilə OTDDPH əlilliyi olan şəxslərin hüquqlarının Konstitusiyaya daxil edilməsi üçün Qanunvericilik Məclisi ilə təşviqat xarakterli tədbirlər keçirmişdir. CRDP və CRDP Komitəsinin tövsiyələri üzrə aparılan təşviqat əsasında OTDDPH Məclisin komitə dinləmələrində çıxış etmiş, ayrı-ayrı komitə üzvləri ilə işləmiş, Konstitusiyaya daxil edilməsi üçün müddəa hazırlamışdır.

## Qvatemalada müstəqil ədliyyə sistemi üçün təşviqat fəaliyyəti

Hakim və vəkillərin müstəqilliyi məsələləri üzrə Xüsusi Məruzəçi Qvatemalaya Ali Məhkəməyə seçkilərin keçirildiyi dövrdə səfr etmişdir. Vətəndaş cəmiyyəti hakimlərin seçkisindən sonra Dövlət Prokuroru vəzifəsinə keçirilmiş seçkilər prosesində öz təşviqat fəaliyyətinin bir hissəsi olaraq xüsusilə də müstəqillik, şəffaflıq və yüksək peşəkarlığa dair tələblərlə bağlı Xüsusi Məruzəçinin hesabatına hərtərəfli şəkildə istinad etmişdir. İHAK-ın Qvatemaladakı Ofisi məqbul beynəlxalq standartların, o cümlədən Xüsusi Məruzəçinin tövsiyələr toplusunun tərtib edilməsinə yardım etmişdir. VCİ-lər öz təşviqat fəaliyyətini qüvvətləndirmək üçün bu topludan istifadə etmiş, Dövlət Prokuroru vəzifəsinə ən səriştəli namizədlərin tövsiyə edilməsi üçün komissiyalar təyin etmişlər. Qanunvericilikdə dəyişikliklərin aparılması, ədliyyə sisteminin müstəqilliyi baxımından hakimiyyət orqanlarının daha çox cavabdeh olması üçün də VCİ-lar ictimai bəyanatlarda bu tövsiyələrdən istifadə etmişlər.

## 4.11. Potensialın yaradılması və qüclәndirilmәsi

İnsan hüquqları mexanizmlərinin nəticələri və tövsiyələri Dövlət orqanlarında və ya vətəndaş cəmiyyəti iştirakçılarında olan geniş çeşidli potensial boşluqlarını müəyyən edə bilər ki, bu da onların insan hüquqlarını həyata keçirmək qabiliyyətini məhdudlaşdırır. Bəzən tövsiyələrdə tək boşluqlar müəyyən edilmir, onların aradan qaldırılması üçün potensial quruculuğuna yönələn tədbirlərin aparılması da təklif edilir. Bəzi hallarda VCİ-lar belə boşluqların aradan qaldırılmasında və ya azaldılmasında bütün imkanlara malik olur, bir çoxları isə həm VCİ-lar, həm də Dövlət orqanları üçün insan hüquqları mövzusunda təlimlər keçirmək təcrübəsinə və biliyinə sahib olur.

Tövsiyələrdə VCİ-lar tərəfindən potensial quruculuğu sahəsində tədbirlərin həyata keçirilməsi ilə aradan qaldırılmış boşluqlar əks olunur. Belə hallarda tövsiyələr vətəndaş cəmiyyəti fəaliyyətinin və potensial quruculuğunda onun oynadığı rolun mühüm olduğunu bir daha vurğulayır. Digər hallarda tövsiyələr mövcud proqramların əhatə etmədiyi boşluqlara işarə edə bilər. Monitorinqə cəlb olunmuş vətəndaş cəmiyyəti aşağıdakı vasitələrlə potensial quruculuğu üzrə növbəti tədbirlərin səmərəliliyini qiymətləndirəcəkdir:

- Tələb olunan təcrübə baxımından potensial quruculuğu tədbirlərini aparmaq üçün VCİ-ların yaxşı imkanlara malik olub-olmadığını, mövcud resursları və gözlənilən təsiri qiymətləndirmək. Potensial quruculuğu üzrə yeni tədbirlərin VCİ-ların prioritet və iş planlarına necə uyğunlaşacağının təhlili bu qiymətləndirmənin bir hissəsini təşkil edir;
- Hədəfə alınan qurum və təşkilatlarda ehtiyacların, o cümlədən insan hüquqlarının həyata keçirilməsinin təkmilləşdirilməsi baxımından potensialda olan boşluqların aradan qaldırılması üçün onların iradəsinin qiymətləndirilməsi; və
- Potensial quruculuğu sahəsində digər proqramlara uyğunluğun, yeni tədbirlərin əlavə dəyərinin, onların təsiri və davamlılığının təhlil edilməsi.

Təcrübə göstərmişdir ki, Dövlət qurumları, eləcə də VCİ-lar çox zaman potensial quruculuğu proqramları üçün açıq olur, ancaq bu, avtomatik şəkildə gözlənilən nəticələr vermir. Dəyişməyə hazırlığın məhdud olması, benefisiarlar arasında yüksək səviyyədə kadr axıcılığı, potensial quruculuğu tədbirlərinin konstruktiv məhdudiyyəti (məsələn, qeyri-davamiyyət, qeyri-aydın məqsədlər, bir-birindən çox fərqli biliklərə malik olan benefisiarlar) və ya bu faktorların məcmusu sayəsində gecikmə halları ola bilər. Bu risklər potensial quruculuğu proqramlarının layihələşdirilməsində ehtiyatla qiymətləndirilməli, nəticələr qiymətləndirilərkən göstərilən təsir araşdırılmalıdır.[13]

[13] İnsan hüquqları mövzusunda təlimin qiymətləndirilməsinə dair təlimatlar, bax insan hüquqları təlimi fəaliyyətinin qiymətləndirilməsi (Birləşmiş Millətlər Təşkilatının Nəşri, HR/P/PT/18).

**Kot-Divuarda cinzi zorakılıq əleyhinə mübarizə üçün təhlükəsizlik qüvvələrinin fəallaşdırılması və potensial quruculuğu**

2009-cu ildə Kot Divuar üzrə UDİ-dən sonra QHT SOS Exclusion əsasən polis və hərbi qüvvələr üçün insan hüquqları sahəsində potensial quruculuğuna yönələn fəaliyyət planının hazırlanması məqsədilə tövsiyələrdən istifadə etmişdir. “Qadın hüquqlarına dair UDİ tövsiyələri ilə bağlı iki seminar təşkil etdik” Təşkilatın Prezidenti izah etid. “Bu, Həmrəylik, Ailə, Qadın və Uşaq Məsələləri Nazirliyi, Ədliyyə Nazirliyi və BMT Qadınlar kimi əsas iştirakçıların bəziləri ilə həmin tövsiyələrin həyata keçirilməsi ilə bağlı vəziyyəti qiymətləndirmək üçün yaxşı fürsət oldu”. Bundan sonra cinsi zorakılıq əleyhinə sosial səfərbərlik kampaniyası keçirilmişdir ki, bu da UDİ tövsiyələrindən biri olmuşdur. “Kampaniya vətəndaş cəmiyyəti iştirakçılarını, dini liderləri, Həmrəylik və Ədliyyə Nazirlikləri, eləcə də kampaniyanın həyata keçirildiyi icmaları bir araya gətirmək üçün bizə imkan yaratdı”.

## 4.12. Monitorinq tədbirlərində gender perspektivinin inteqrə edilməsi

Monitorinq fəaliyyəti prioritetləşdirilərkən aşağıdakı suallar gender məsələsinin inteqrə edilməsinə yardım edə bilər:

- Prioritetləşdirilmiş tövsiyələr və əlaqədar növbəti tədbirlər əsasən qadınlara və/və ya kişilərə təsir edir?
- Gender perspektivi prioritetləşdirilmiş müdaxiləyə necə daxil edilir? Genderə xas tədbirlər və/və ya gender faktorunun nəzərə alınması vasitəsilə?
- Bəzi hüquq sahibləri bir neçə məsələdə ayrı-seçkiliyə məruz qalır?
- Növbəti fəaliyyət onların vəziyyətini yoluna qoyurmu?
- Planlaşdırılmış tədbirlər hüquq sahiblərinə səlahiyyət verirmi, gender ayrı-seçkilik və qeyri-bərabərlik əleyhinə mübarizə aparırmı?
- Müdaxilələrin prioritetləşdirilməsi üçün fərqli hüquq sahibləri ilə məsləhətləşmə aparılıbmı?

Növbəti tədbirlər **həyata keçirilərkən:**

- Cins və yaş, etnik mənşə, əlillik, sosial-iqtisadi status və s. kimi digər fərqlilik elementləri üzrə bölünmüş məlumatların toplanması və təqdim edilməsi;
- Gender üzrə spesifik informasiya olmadıqda, bunu hesabatvermədə aydın şəkildə təsdiq etmək;
- Tədbirlərin, təlim və potensial quruculuğu tədbirlərinin təşkil edilməsi zamanı:
- İştirak və təlimçilərdə və ya ekspertlərdə gender balansının, gender faktorunun nəzərə alındığı mühitin (yer, vaxt çərçivəsi), gender faktorunun nəzərə alındığı məzmun və metodların təmin edilməsi;
- Sistematik gender təhlilinin aparılması;
- Gender faktorunu nəzərə alan tərəfdaşlarla iş;
- Təşviqat və məlumatlandırmanın artırılması fəaliyyətində: gender bərabərliyinə dair mesajları daxil edin, gender faktorlarının nəzərə alındığı dildən və surətlərdən istifadə edin.

## 4.13. İnklüzivliyin, müxtəlifliyin və əlçatımlığın əks olunması

İzlənmə tədbirlərinin planlaşdırılması və həyata keçirilməsi:

- Müxtəlif iştirakçı tərəflərin cəlb edilməsi ilə hamını əhatə etmək;
- Perspektivlərin müxtəlifliyinin duyulması və onların izlənmə tədbirlərində əks olunması;
- Müxtəlif ixtisaslı şəxslərin, o cümlədən azlıqlar və əlilliyi olan şəxslərin iştirakı üçün əlyetərliyin nəzərə alınması, əlilliyi olan şəxslərin sənədlər və resurslara çıxışını təmin etmək üçün tədbirlərin görülməsi.

## 4.14. Məhkəmə fəaliyyətində və məhkəmə çəkişmələrində tövsiyələrdən istifadə edilməsi

VCİ-lərin əksəriyyəti ölkə, regional və beynəlxalq səviyyədə ədliyyə və ya kvazi-ədliyyə mexanizmləri vasitəsilə öz hüquqlarını tələb edən fərdləri və qrupları dəstəkləyir. Şikayətçilərə hüquqi məsələlərdə yardımın göstərilməsi, ekspertlərin hüquqi rəyinin verilməsi, insan hüquqları üzrə qanunun tətbiq edilməsi üçün hakimlər, prokurorlar, vəkillər və hüquqşünasların potensial quruculuğu və ya həm fəallar, həm də məhkəmələr tərəfindən insan hüquqları sahəsində beynəlxalq qanunvericiliyin istifadə olunmasının təşviq edilməsi buraya daxil ola bilər.

Ölkə və regional səviyyələrdə ədliyyə proseslərində insan hüquqları üzrə beynəlxalq qanunvericilikdən istifadə və istifadənin təşviq edilməsi insan hüquqları sahəsində yurisprudensiyanı qüvvətləndirə bilər. Saziş qurumlarının ümumi rəylərində verilən saziş müddəalarının şərhi, məsələn, konkret hüququn nə ilə nəticələnə biləcəyinə aydınlıq gətirə bilər, məhkəmə hallarına dair qərarların verilməsində ölkə məhkəmələri tərəfindən nəzərdən keçirilə bilər. Eynilə, insan hüquqları mexanizmləri tərəfindən verilən konkret tövsiyələrə istinad etməklə hüquq sahiblərinin iddiaları qüvvətləndirilə bilər.

**Kenyada patentsiz dərman preparatlarına əlyetərliyin tələb olunması**

20 aprel 2012-ci il tarixində Kenyada Ali Məhkəmənin mühüm qərarı 2008-ci ilin Anti-Saxtakarlıq Aktının patentsiz dərman preparatlarına tətbiq edilməyən hissələrinə aid olmuş, beləliklə məqbul qiymətə olan müalicənin təmin olunmasını qorumuşdur. Bu məhkəmə işi HİV xəstəsi olan üç nəfər, Şərqi Afrikada HİV-lə bağlı insan hüquqlarını müdafiə və təşviq edən, tədqiqat zamanı iddiaçıların aparıcı hüquq məsləhətçisinə yardım göstərən insan hüquqları təşkilatı tərəfindən başlanmışdır. 2009-cu ildən davam edən məhkəmə işi 2008-ci ilin Anti-Saxtakarlıq Aktının aspektlərinə qarşı çıxmışdır ki, bu da patentsiz dərman preparatlarının, o cümlədən HİV-ə yoluxmuş insanlar üçün antiretroviral (ARVs) idxal edilməsini təhlükəyə məruz qoymuşdur. Sağlamlıq hüququ üzrə BMT-nin Xüsusi Məruzəçisi məhkəmə qərarında kifayət qədər istinad edilmiş ekspert rəyi vermişdir.
Öz qərarında Xanım Hakim Ngugi müəyyən etmişdir ki, əqli mülkiyyət Kenya Konstitusiyasında müəyyən edilmiş həyat, sağlamlıq və insan ləyaqəti hüquqlarından üstün tutulmamalıdır. Patent sahibləri qanun əsasında patentsiz dərman preparatlarının idxalına mane ola bilmək üçün aktdan istifadə edə bilməyəcəkdir ki, bu da iddiaçıların ehtiyat etdiyi əsas ehtimal idi.[14]

## 4.15. İzləmə tədbirlərinin nəticələri və yaxşı təcrübə ilə bölüşmək

İnsan hüquqları sahəsində beynəlxalq qanunlar və əlaqədar mexanizmlər hüquq sahiblərinin reallığından uzaq ola bilər. Cenevrədə müstəqil ekspertlərin tövsiyələri adi insanların həyatına necə təsir edə bilər? Saziş qurumunun nə olduğundan və ya Xüsusi Məruzəçinin nə etdiyindən xəbərsiz ola biləcək səlahiyyət sahiblərinin daha yaxşı davranması üçün onlar nə kimi təsir göstərə bilər? Dəyişiklik baş tuta bilir və tutur ki, bu da bir çox hallarda vətəndaş cəmiyyətinin izləmə tədbirləri sayəsində mümkün olur.

İzləmə tədbirləri ilə bağlı nəticələrin və yaxşı təcrübələrin sənədləşdirilməsi, bölüşdürülməsi və yayılması digərlərini bu işə cəlb olunmağa, onu təkrarlamağa, təcrübəni öz kontekstinə və prioritetlərinə uyğunlaşdırmağa şövq edir. İnsan hüquqları mexanizmlərinin təsirinə dair rəylər bu mexanizmlərə işləyən ekspertlər tərəfindən yüksək qiymətləndirilir.

[14] Qərara bax: http://bit.ly/L1cEu5 (qiymətləndirilib 24 iyul 2013).

**Şərqi Avropa və Mərkəzi Asiyada xəstəyə qulluqla bağlı məhkəmə prosesi aparılan insan hüquqları hallarına dair resursların və təcrübələrin bölgüsü**

Xəstələrə Qulluq sahəsində İnsan Hüquqları adlı layihə xəstələrin adından insan hüquqları sahəsində aparılan məhkəmə işlərində maraqlı olan vəkillər üçün ölkə üzrə Vəkillərin Təlimatını hazırlamışdır. Təlimat praktiki olub, həm məhkəmə işinin aparılması, həm də ombudsmanlar və tibbi lisenziyalaşdırma qurumlarının daxil olduğu alternativ mexanizmləri əhatə edir, ölkə, regional və beynəlxalq səviyyələrdə xəstənin və təchizatçının hüquq və cavandehliklərini araşdırır, o cümlədən saziş qurumu yurisprudensiyasına və xüsusi prosedurların işinə dərindən nəzər salır.
Layihə həm də praktikantlar cəmiyyətinə, materialların və resursların bölüşdürülməsi üçün yaxşı əsaslanmış məkana malikdir. Praktikantlar cəmiyyəti üç əsas hissədən ibarətdir: hüquq və səhiyyənin tədrisi; xəstələrə qulluq sahəsində insan hüquqları mövzusunda təlim və media vasitələri.[15]

## 4.16. İnsan hüquqları mexanizmlərinin mövcud izləmə prosedurları və təcrübələri ilə iş

İnsan hüquqları mexanizmlərinin izləmə prosedurları və təcrübələri Hökumətlərlə əməkdaşlığa, eləcə də VCİ iştirakına güvənir. Təlimatların növbəti bölməsində mövcud izləmə prosedurları və təcrübələri təsvir edilir.

[15] http://health-rights.org/

# 5. İzləmə prosedurları və insan hüquqları mexanizmləri ilə bağlı təcrübə

İnsan hüquqlarına dair verilmiş tövsiyələrdən sonra baş vermiş dəyişikliyin qiymətləndirilməsi, insan hüquqları mexanizmlərinin prosedur altında olan ölkəni araşdırmasından sonra nələrin baş verdiyi haqda məlumatın əldə edilməsi, BMT insan hüquqları arxitekturasının yerlərdəki təsirinin başa düşülməsi insan hüquqları mexanizmlərinin əsas marağı və məqsədidir. Təsis olunduqları dövrdən etibarən bu mexanizmlər dərk etmişdirlər ki, onların əhəmiyyəti həyata keçirə və ya təşviq edə biləcəkləri müsbət dəyişiklikdən ibarətdir. Müsbət dəyişikliyin sübutu onların effektivliyinin sübutudur. Bu "sübut axtarışı" hər bir mexanizmin özü üçün hazırladığı müxtəlif izləmə formalarının yaradılması ilə nəticələndi. Bəziləri bir neçə saziş qurumlarının yekun qeydləri üçün nəzərdə tutulan izləmə proseduru kimi ümumi qəbuledilmiş prosedurlar şəklində rəsmiləşdirilir. Digərləri ölkə səfərlərindən sonra Xüsusi Məruzəçilər tərəfindən hazırlanan izləmə hesabatları kimi ardıcıl təcrübələrdir. Başqa hallarda izləmə xüsusi hallar üçün nəzərdə tutulmuş təşəbbüs ola bilər, məsələn, insan hüquqlarına dair tövsiyələrin icrası ilə bağlı təcrübələrin mübadiləsi üçün regional seminar. Aşağıdakı bölmələrdə bu vasitələr daha ətraflı şəkildə təsvir olunur.

## 5.1 İnsan Hüquqları üzrə Saziş qurumları
### Yekun qeydlər üçün nəzərdə tutulmuş izləmə prosedurları

Saziş qurumları iştirakçı Dövlətlərin yekun qeydlərdəki tövsiyələri və ya fərdi şikayət prosedurları əsasında irəli sürülmüş işlər üzrə verilmiş qərarları yerinə yetirmələrinə yardım etmək üçün prosedurlar işləyib hazırlamışdırlar. Bütün saziş qurumları Dövlətlərdən özlərinin icraya dair dövri hesabatlarında izləmə prosedurunu diqqətə almağı tələb edirlər. İşgəncələr Əleyhinə Komitə (İƏK), İrqi Ayrı-seçkiliyin Ləğv edilməsi üzrə Komitə (İALK), İnsan Hüquqları Komitəsi (İHK), Qadınlara qarşı Ayrı-seçkiliyin Ləğv edilməsi üzrə Komitə (QALK) və Məcburi Yoxaçıxmalar üzrə Komitə (MYK) formal izləmə prosedurları qəbul etmişdirlər. Bu beş saziş qurumu öz yekun qeydlərində tələb edirlər ki, Dövlətlər təxirə salınmadan icra edilə bilən spesifik tövsiyələrə və ya "prioritet təşkil edən narahatlıqlar"a cavab olaraq həyata keçirdikləri tədbirlər barəsində bir il ərzində (QALK-a münasibətdə iki il) hesabat versinlər. Bu komitələr izləmə prosedurları üzrə məruzəçi və ya əlaqələndirici təyin edirlər ki, onlar iştirakçı Dövlətlərin izləmə hesabatlarının qiymətləndirilməsindən və komitəyə təqdim edilməsindən cavabdeh olurlar. Saziş qurumlarının bəzi üzvləri hesabatı və yekun qeydlərin icrasını izləmək üçün iştirakçı Dövlətlərin dəvəti əsasında bu ölkələrə səfərlər etmişdirlər.

İnsan Hüquqları Komitəsinə münasibətdə qeyd olunmalıdır ki, komitə iştirakçı Dövlətdən izləmə hesabatını qəbul etdikdən sonra izləmə proseduru üzrə xüsusi məruzəçi hər sessiyada tərəqqi hesabatı hazırlayır ki, bu hesabata iştirakçı Dövlətin izləmə hesabatının xülasəsi, Vətəndaş Cəmiyyəti Təşkilatlarından və digər mənbələrdən əldə olunmuş məlumat, həmçinin Komitənin özünün izləməni qiymətləndirmə meyarı əsasında verdiyi qiymətləndirmə daxil edilir (aşağıdakı cədvələ baxın). Bundan sonra Komitə izləmə hesabatı ilə bağlı qəbul

olunmuş qərar haqda iştirakçı Dövləti məlumatlandırır. Əgər iştirakçı Dövlət izləmə proseduru ilə əməkdaşlıq etmir və ya Komitənin qeyri-qənaətbəxş hesab etdiyi tədbirləri qəbul edirsə, məruzəçi iştirakçı Dövlətin nümayəndəsi ilə görüşün təşkil olunmasını tələb edə bilər.

### İnsan Hüquqları Komitəsinin izləməni qiymətləndirmə meyarı

**Cavab/görülən tədbir qənaətbəxşdir**

A Cavab əsasən qənaətbəxşdir

**Cavab/görülən tədbir qismən qənaətbəxşdir**

B1 Məsələnin mahiyyəti üzrə tədbirlər görülmüşdür, lakin əlavə məlumat tələb olunur
B2 İlkin tədbirlər görülmüşdür, lakin əlavə məlumat tələb olunur

**Cavab/görülən tədbir qənaətbəxş deyil**

C1 Cavab qəbul edilmişdir, lakin görülən tədbirlər tövsiyələri yerinə yetirməmişdir
C2 Cavab qəbul edilmişdir, lakin tövsiyələrə uyğun deyil

**Komitə ilə əməkdaşlıq edilmir**

D1 Təyin edilmiş son müddətə kimi heç bir cavab qəbul edilməmiş və ya hesabatdakı hər hansı spesifik suala cavab verilməmişdir
D2 Xatırlatma(lar)dan sonra heç bir cavab qəbul edilməmişdir

**Görülmüş tədbirlər Komitənin tövsiyələrinə ziddir**

E Cavab göstərir ki, görülmüş tədbirlər Komitənin tövsiyələrinə ziddir

## *Vətəndaş cəmiyyəti necə iştirak edə bilər?*

İştirakçı Dövlətlərin hesabatlarının və mübahisəli məsələlər siyahısının nəzərdən keçirilməsi üçün təqdim olunmuş "kölgə" və ya "alternativ" hesabatlara bənzər şəkildə, Vətəndaş Cəmiyyəti İştirakçıları izləmə proseduru çərçivəsində də məlumat təqdim edə bilərlər. Bu halda, təqdim olunan sənədlərdə əsas diqqət spesifik olaraq izləmə proseduruna dair yekun qeydlərdə müəyyən edilmiş tövsiyələrə yönəldilməli, hökumət qurumları tərəfindən görülmüş tədbirlər haqda qısa məlumat[16] daxil edilməli və bu tədbirlərin effektivliyi qiymətləndirilməlidir. Tövsiyələrin yerinə yetirilməsi üçün zəruri olan hər hansı tədbirin görülmədiyi haqda məlumat da qeyd oluna bilər. VCİ Dövlət tərəfindən təqdim olunmuş cavabları da şərh edə bilərlər. VCİ-nın izləmə proseduru ilə bağlı sənədləri iştirakçı Dövlətin hesabatlarının və mübahisəli məsələlər siyahısının nəzərdən keçirilməsi üçün verilən sənədlərlə eyni qaydada təqdim olunur, ictimaiyyət üçün açıq olur və İnsan Hüquqları üzrə Ali Komissarlığın internet səhifəsində yerləşdirilir və ya sənədləri təqdim edən təşkilatın tələbinə uyğun olaraq məxfi hesab edilir.

[16] Qadınlara qarşı Ayrı-seçkiliyin Ləğv edilməsi üzrə Komitə təqdim olunan sənədlərin 3,500 sözdən artıq olmamasını tələb edir.

### Uşaq Hüquqları Komitəsinin yekun qeydlərindən milli səviyyədə istifadə olunması

Uşaq Hüquqları Komitəsinin (UHK) hesabat vermə prosesində iştiraka dövri yanaşmanı təşviq etmək və vətəndaş cəmiyyətini öz təbliğat işlərində UHK-nin tövsiyələrindən tam şəkildə istifadə etməyə həvəsləndirmək üçün Child Rights Connect VCİ-lər və insan hüquqları üzrə milli qurumların həyata keçirdiyi izləmə tədbirləri ilə bağlı praktiki nümunələr silsiləsi hazırlamışdır.[17]

Saziş qurumlarının üzvləri həmçinin vətəndaş cəmiyyəti, BMT-nin agentlikləri, İnsan Hüquqları üzrə Ali Komissarlıq və ya Hökumətlər tərəfindən təşkil olunmuş icraya dair regional, sub-regional və ya milli seminarlarda iştirak edə bilərlər. Vətəndaş cəmiyyətinin bu seminarlarda iştirakı təşviq olunur.

### İşgəncələr Əleyhinə Alt Komitənin izləmə səfərləri

İşgəncələr Əleyhinə Konvensiyanın Fakultativ Protokoluna əsasən 2007-ci ildə yaradılmış İşgəncələr Əleyhinə Alt Komitə iştirakçı Dövlətlərin ərazilərindəki istənilən müvəqqəti saxlama yerlərinə və digər azadlıqdan məhrumetmə yerlərinə, o cümlədən polis bölmələri, həbsxanalar, psixiatriya xəstəxanalarına və sosial yardım müəssisələrinə faktaraşdırıcı səfərlər təşkil edə bilərlər. Ölkəyə səfərin yekununda Alt Komitə öz tövsiyələrini və müşahidələrini məxfi hesabat vasitəsilə iştirakçı Dövlətə ötürür.

Əgər Alt Komitə münasib hesab edərsə, müntəzəm səfərdən sonra qısa izləmə səfərinin həyata keçirilməsini təklif edə bilər. 2010-cu ilin sentyabr ayında Alt Komitə Paraqvaya özünün ilk izləmə səfərini həyata keçirmişdir ki, vətəndaş cəmiyyəti də bu səfərdə iştirak etmişdir.

[17] www.childrightsnet.org/NGOGroup/CRC/FollowUp/

## Fərdi şikayətlərə dair qərarların izlənməsi

İnsan hüquqları üzrə saziş qurumları müəyyən vəziyyətdə fərdi şikayətləri və ya məlumatları nəzərdən keçirir.[18] Bu prosedura əsasən, spesifik müqavilə çərçivəsində hüquqlarının pozulduğunu iddia edən istənilən fərd müqavilənin iştirakçısı olan və saziş qurumunun fərdi şikayətləri nəzərdən keçirmək səlahiyyətini qəbul edən Dövlətdən saziş qurumuna şikayət edə bilər. İlk növbədə şikayət münasiblik şərtləri əsasında qiymətləndirilir. Əgər şikayət münasib hesab edilirsə, şikayət mahiyyəti etibarilə nəzərdən keçirilir və saziş qurumu müqavilənin hansısa şərtinin pozulub-pozulmadığı haqda qərar qəbul edir. Əgər saziş qurumu şikayətçi(lər)nin hüququnun pozulduğu haqda qərar qəbul edirsə, o, adətən altı aylıq dövr ərzində Dövlətdən saziş qurumunun qərarının həyata keçirilməsi üçün gördüyü tədbirlər haqda məlumat verməsini tələb edir. Bundan sonra Dövlətin cavabı şikayətçi(lər)yə ötürülür ki, bu zaman şikayətçi Dövlətin verdiyi məlumat haqda öz qeydlərini təqdim edə bilər.

Bəzi saziş qurumları, xüsusən İnsan Hüquqları Komitəsi, İşgəncələr Əleyhinə Komitə, İrqi Ayrı-seçkiliyin Ləğv edilməsi üzrə Komitə və Qadınlara qarşı Ayrı-seçkiliyin Ləğv edilməsi üzrə Komitə öz qərarlarının icrasına nəzarət etmək üçün prosedurlar müəyyən etmişdirlər. Belə prosedurlar qərarların icrasını izləməyə məsul olan məruzəçinin təyin olunmasından ibarətdir. Onlar müəyyən dövr üçün və ya Qadınlara qarşı Ayrı-seçkiliyin Ləğv edilməsi üzrə Komitənin nümunəsində olduğu kimi spesifik məsələləri izləmək üçün təyin olunurlar. Qərarların icrası ilə bağlı görülmüş tədbirlər haqda Dövlətin cavabları qeyri-qənaətbəxş olduğu zaman və ya göndərilmədiyində, məruzəçi iştirakçı Dövlətin diplomatik nümayəndələri, adətən Cenevrə və ya Nyu-Yorkdakı daimi missiyalarının diplomatları ilə məsələni müzakirə edə bilər.

## Vətəndaş cəmiyyəti necə iştirak edə bilər?

VCİ-lərin fərdi şikayətlərə cəlb olunduğu hallarda (məsələn, şikayətçiyə saziş qurumuna müraciət etməkdə yardım ediblər) onlar qərarın necə icra olunduğu haqda məlumat verə bilərlər.

[18] 2013-cü ilin iyul ayı etibarilə, bu prosedur Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya, İşgəncələr Əleyhinə Konvensiya, Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya, Bütün Şəxslərin Məcburi Yoxaçıxmalardan Müdafiəsi haqqında Beynəlxalq Konvensiya, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt və Əlillərin Hüquqları haqqında Konvensiya üçün mövcud olmuşdur. 10 iştirakçı Dövlət Bütün Miqrant İşçilərin və Onların Ailə Üzvlərinin Hüquqlarının Müdafiəsi haqqında Beynəlxalq Konvensiyanın 77-ci maddəsinə uyğun olaraq zəruri bəyanatı qəbul etdikdən və Uşaq Hüquqları haqqında Konvensiyanın ən son Fakultativ Protokolunu ratifikasiya etdikdən sonra bu prosedur qeyd olunan Konvensiyalara münasibətdə də qüvvəyə minəcəkdir.

### İnsan hüquqları ilə bağlı qərarların icrasının qiymətləndirilməsi

2010-cu ildə Open Society Justice İnitiative "Məhkəmə qərarından ədalətə - İnsan hüquqlarına dair beynəlxalq və regional qərarların icrası" adlı hesabat dərc etmişdir ki, hesabatda beynəlxalq və regional insan hüquqları qurumlarının, yəni BMT-nin saziş qurumlarının, Afrika, Avropa və İnter-Amerika sistemlərin qərarlarının icrası ilə bağlı problemlər tədqiq olunur. Məruzədə hesab olunur ki, ötən 25 il ərzində əldə olunmuş nailiyyətlərə baxmayaraq, bütün bu sistemlər öz qərarlarının yerlərdə dəyişikliklərə çevrilməsində əngəllərlə üzləşirlər. Bir çox hallarda böyük əhəmiyyət daşıyan qərarlar mühüm islahatların həyata keçirilməsinə gətirib çıxarmamışdır.
Saziş qurumlarının qərarlarının icrasını təhlil edərkən, hesabatda belə bir nəticəyə gəlinir ki, "ümumən qərarların uğurlu icrası siyasi həyatda mövcudluğun yüksək səviyyədə olduğu hallarda və qanunun aliliyi üzrə mütərəqqi ənənələrin mövcud olduğu ölkələrə münasibətdə mümkün olmuşdur. İcranın baş verdiyi yerlərdə bu, çox vaxt komitələrin izləmə səylərini tamamlamağa və digər daxili təzyiq alətlərini tətbiq etməyə müvəffəq olan güclü vətəndaş cəmiyyətinin mövcudluğu səbəbindən mümkün olur".

## 5.2 İnsan Hüquqları Şurası
## İnsan Hüquqları Şurasının işinin izlənməsi

Baş Assambleyanın İnsan Hüquqları Şurasının (Şura) yaradılmasına dair 60/251 saylı qətnaməsində qərara alınmışdır ki, Şuranın iş metodları **tövsiyələrin növbəti müzakirələrinin aparılmasına və tövsiyələrin icrasına imkan verməlidir.**

Şura müzakirə etdiyi insan hüquqları məsələlərini aşağıdakı şəkildə izləyir:

- Qəbul etdiyi qətnamə və qərarlarda izləmə ilə bağlı məsələlərə birbaşa istinadlar edir. Qətnamələrə çox vaxt "Şura bu məsələ ilə məşğul olmağa davam edəcəkdir" müəyyən edən müddəalar daxil edilir. Bu o deməkdir ki, məsələ gələcək sessiyada Şuranın müzakirələrinin mövzusu olaraq qalacaqdır.

- Gündəlikdə duran və müəyyən vaxt ərzində təkrarlanan məsələlər əsasında müntəzəm və xüsusi sessiyalar keçirir. Əsasən müntəzəm sessiyalar təşkil olunsa da, eyni və ya bənzər mövzulara dair xüsusi sessiyalar da keçirilə bilər (məsələn, Suriya Ərəb Respublikasında insan hüquqlarının vəziyyətinə dair 2011 və 2012-ci illərdə keçirilmiş xüsusi sessiyalar).

- Öz mexanizmlərinə, o cümlədən xüsusi prosedurlara, köməkçi orqanlara və ya İnsan Hüquqları üzrə Ali Komissarlığa müəyyən addımları atmağı və gələcək sessiyada bu haqda hesabat verməyi tapşırır. Şura həmçinin insan hüquqlarının pozulması hallarını araşdırmaq və əldə olunmuş nəticələrə dair hesabatı Şuraya təqdim etmək mandatına malik olan tədqiqat komissiyası və ya faktaraşdırıcı missiya kimi xüsusi mexanizmləri yaratmağa da qərar verə bilər. Şura tərəfindən adəti üzrə verilən digər tapşırıqlara tədqiqat işlərinin aparılması və ya ekspert iclaslarının və ya panellərinin təşkili daxildir.

## Vətəndaş cəmiyyəti necə iştirak edə bilər?

Yuxarıda təsvir olunmuş izləmə üsulları Şuranın standart iş metodlarıdır. Bu səbəbdən vətəndaş cəmiyyətinin iştirakının üsulları eynidir və buraya QHT-lərin BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusu əldə etməsinin, yazılı və şifahi bəyanatlar səsləndirməsinin və əlavə tədbirlər keçirməsinin mümkünlüyü daxildir. İnsan Hüquqları Şurasının sessiyasında iştirak etmək üçün Cenevrəyə səfər etməyən QHT-lər gündəlikdəki bəzi məsələlərlə bağlı video mesaj vasitəsilə şifahi bəyanat verə bilərlər. Əlavə məlumat əldə etmək üçün İnsan Hüquqları üzrə Ali Komissarlığın vətəndaş cəmiyyəti üçün Məlumat kitabçası – "BMT-nin insan hüquqları proqramı ilə birgə işləmək" və Komissarlığın İnsan Hüquqları Şurası[19] haqda vətəndaş cəmiyyəti üçün hazırladığı Praktiki Təlimatlara, həmçinin Komissarlığın internet səhifəsinə istinad edin.[20]

Yazılı və şifahi bəyanatlardan və əlavə tədbirlərdən başqa vətəndaş cəmiyyətinin tədqiqatlara töhfə verməyə və Şuranın mandatı altında keçirilən ekspert iclaslarında və panellərində iştiraka dəvət edilməsi standart praktikadır. Bundan savayı, QHT-lər Şuraya paralel olaraq keçirilən və qətnamə layihələrinin mətnlərinin müzakirə edildiyi açıq tərkibli qeyri-rəsmi iclaslarda iştirak edə bilərlər.

Son olaraq, Şuranın qətnamə və qərarları Dövlətlərin insan hüquqlarını müdafiə və təşviq etmək öhdəliyini əks etdirir. Bir daha qeyd olunmalıdır ki, vətəndaş cəmiyyəti Şuranın onlar üçün maraq kəsb edən qətnamə və qərarlarında ifadə olunmuş insan hüquqları öhdəliklərinin icrası ilə bağlı plan tərtib edə, bunu prioritet kimi müəyyən edə və təzyiq göstərmək üçün tədbir görə bilərlər.

## Köməkçi orqanlar, mexanizmlər və mandatlar

Şuranın köməkçi orqanları və mexanizmləri tərəfindən çoxlu sayda tövsiyələr qəbul olunur, o cümlədən:

- Universal Dövri İcmal (Təlimatların 5.4-cü bölməsinə baxın);
- İnsan Hüquqları Şurasının Məşvərət Komitəsi;
- Şikayət proseduruası;
- Xüsusi proseduralar (Təlimatların 5.3-cü bölməsinə baxın);
- Milli azlıqlar məsələsinə dair Forum;
- Yerli xalqların hüquqları üzrə ekspert mexanizmi və
- Biznes və insan hüquqları üzrə Forum

Vətəndaş cəmiyyətinin bu qurumlarında iştirakı haqda əlavə məlumat əldə etmək üçün İnsan Hüquqları üzrə Ali Komissarlığın vətəndaş cəmiyyəti üçün Məlumat kitabçası – "BMT-nin insan hüquqları proqramı ilə birgə işləmək", İnsan Hüquqları Şurası haqda vətəndaş cəmiyyəti üçün Praktiki Təlimatlar və Sosial forum haqda Praktiki Təlimatlara istinad edin.[21]

---

[19] www.ohchr.org/EN/AboutUs/Pages/CivilSociety.aspx internet ünvanından əldə etmək mümkündür.
[20] www.ohchr.org/EN/HRBodies/HRC/Pages/NgoParticipation.aspx
[21] www.ohchr.org/EN/AboutUs/Pages/CivilSociety.aspx internet ünvanından əldə etmək mümkündür.

## 5.3 Xüsusi prosedurlar

### *Ölkə səfərlərindən sonra izləmə tədbirləri*

Xüsusi proseduraların mandatına malik səlahiyyətli nümayəndələrin ölkəyə səfər etməsi üçün Hökumətin dəvəti olmalıdır. Xüsusi proseduralar ölkəyə səfər etmək tələblərini aşağıdakı şəkildə izləyirlər:

- Öz hesabatlarında, internet səhifələrində, kütləvi tədbirlər zamanı və mətbuatda səfər tələbini ictimaiyyətə bəyan edilməsi;
- Səfər planlaşdırılan ölkənin diplomatik nümayəndələri ilə görüşlərin keçirilməsi;
- Rəsmi dəvətin əldə olunmasına zəmin hazırlamaq üçün ölkəyə və ya regiona işçi səfərlərin edilməsi (məsələn, akademik səfərlərin həyata keçirilməsi) və
- Səfər tələblərini xatırlatmaq məqsədilə haqda rəsmi teleqramların yazılması və ictimaiyyətə bəyan edilməsi

Səfər baş tutduqdan sonra xüsusi prosedurların izləmə mqəsədilə hazırladığı bir sıra müxtəlif təcrübələrdən istifadə olunur. Bunlara daxildir:

**1. İzləmə məqsədilə həyata keçirilən ölkə səfərləri**. Xüsusi proseduraların mandatına malik səlahiyyətli nümayəndələr əvvəlki ölkə missiyalarını izləmək məqsədilə yenidən səfər həyata keçirirlər. Bu səfərlər əvvəlki səfər zamanı əldə edilmiş məlumatlar və verilmiş tövsiyələrlə müqayisədə ölkənin nail olduğu tərəqqi və geriləməni hərtərəfli şəkildə qiymətləndirməyə imkan verir. Bu səfərlər yaxşı təcrübədir, lakin buna baxmayaraq, məhdud resurslar səbəbindən xüsusi prosedurlar tərəfindən il ərzində həyata keçirilən 40-50 səfərdən yalnız bir neçəsi izləmə məqsədilə baş tutan səfərlərdir.

### İzləmə məqsədilə həyata keçirilən ölkə səfərlərinin nümunələri

Uşaq alveri, fahişəliyi və pornoqrafiyası üzrə Xüsusi Məruzəçi
⇒ 2012: Qvatemala (A/HRC/22/54/Add.1)
İşgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri üzrə Xüsusi Məruzəçi
⇒ 2012: Uruqvay (A/HRC/22/53/Add.3)
İrqçiliyin müasir formaları, irqi ayrı-seçkilik, ksenofobiya və dözümsüzlük üzrə Xüsusi Məruzəçi
⇒ 2011: Hungary (A/HRC/20/33/Add.1)
Qadınlara qarşı zorakılıq, onun səbəbləri və nəticələri üzrə Xüsusi Məruzəçi
⇒ 2011: ABŞ (A/HRC/17/26/Add.5)
⇒ 2010: El-Salvador (A/HRC/17/26/Add.2) və Əlcəzair (A/HRC/17/26/Add.3)
Terrorizmə qarşı mübarizə apararkən, insan hüquqları və fundamental azadlıqların təşviqi və müdafiəsi üzrə Xüsusi Məruzəçi
⇒ 2011: Tunis (A/HRC/16/51/Add.2)

**2. İzləmə hesabatları.** Xüsusi proseduraların mandatına malik səlahiyyətli nümayəndələr Hökumət, milli insan hüquqları institutları və vətəndaş cəmiyyəti tərəfindən təqdim olunmuş məlumat əsasında izləmə hesabatları dərc edirlər. Məcburi və ya qeyri-ixtiyari yoxaçıxmalar üzrə İşçi Qrup, işgəncə üzrə Xüsusi Məruzəçi, məhkəmədən kənar, mühakiməsiz və ya özbaşına edam halları üzrə Xüsusi Məruzəçi, insan hüquqları və ifrat yoxsulluq üzrə Xüsusi Məruzəçi və din və etiqad azadlığı üzrə Xüsusi Məruzəçi tərəfindən ölkə səfərlərindən sonrakı izləmə hesabatları ilə bağlı maraqlı təcrübələr işlənib hazırlanmışdır.

### Məcburi və ya qeyri-ixtiyari yoxaçıxmalar üzrə İşçi Qrupun izləmə hesabatları

2010-cu ildə İşçi Qrupu öz izləmə hesabatları üçün format müəyyən etmişdir ki, bu format Qrupun tövsiyələrini əks etdirən cədvəllər, ölkə səfəri həyata keçirilərkən mövcud olan vəziyyətin qısa təsviri və Qrupun hökumət və qeyri-hökumət mənbələrindən topladığı məlumat əsasında atılmış addımların icmalı ətrafında təşkil olunmuşdur. Həmin dövrdən etibarən, İşçi Qrupu Kolumbiya, El-Salvador, Qvatemala, Honduras, Mərakeş və Nepala edilən ölkə səfərlərindən sonra məcburi yoxaçıxmalarla bağlı ölkələrin əldə etdiyi tərəqqi və geriləməyə dair izləmə hesabatları dərc etmişdir.

### Dini və etiqad azadlığı üzrə Xüsusi Məruzəçinin izləmə cədvəlləri

Xüsusi Məruzəçi ölkə səfərlərindən sonra tövsiyələrin milli səviyyədə icrası haqda yeni məlumatlar əldə etmək məqsədilə izləmə məktubları göndərir. 2005-ci ildə etibarən səfər edilmiş ölkələr üzrə izləmə cədvəllərinə ölkə səfərinə dair hesabatlardakı nəticələr və tövsiyələr və BMT-nin müvafiq sənədlərində, o cümlədən universal dövri icmallarda, xüsusi proseduralarda və saziş qurumlarında mövcud olan izləmə məlumatları daxil edilir.[22]

**3. İzləmə tədbirləri.** Xüsusi prosedurların, Hökumətlərin, milli insan hüquqları institutlarının, vətəndaş cəmiyyəti və ya İnsan Hüquqları üzrə Ali Komissarlığın təşəbbüsü ilə keçirilməsindən asılı olmayaraq, milli, regional və ya beynəlxalq izləmə tədbirləri əldə olunmuş tərəqqinin qiymətləndirilməsi və ölkə səfərlərindən sonra verilən tövsiyələrin icrası ilə əlaqədar təcrübə mübadiləsi və problemlərə dair fikir mübadiləsi baxımından faydalı ola bilər. Bu cür tədbirlər dəyirmi masalar, ekspert iclasları və ya konfransları şəklində təşkil oluna bilər.

---

22 www.ohchr.org/EN/Issues/FreedomReligion/Pages/Visits.aspx

### Mavritaniyada köləliyə dair seminar

2013-cü ilin yanvar ayında köləliyin müasir formaları üzrə Xüsusi Məruzəçi Mavritaniyaya etdiyi ölkə səfərindən sonra verdiyi tövsiyələrin icrası ilə bağlı izləmə seminarında iştirak etmişdir. Seminarda iştirak edən hökumət nümayəndələri və Vətəndaş Cəmiyyəti Təşkilatları Xüsusi Məruzəçinin irəli sürdüyü tövsiyələrin icrası üçün “yol xəritəsi” hazırlamışdırlar. İnsan Hüquqları üzrə Ali Komissarlığın Mavritaniyadakı ofisi Hökuməti bu “yol xəritəsi”ni rəsmi şəkildə qəbul və icra etməyə həvəsləndirmək üçün VCT-lərlə birgə işləmişdir.

### Çili və Argentinada yerli xalqların vəziyyəti ilə bağlı əldə olunan məlumatların yayılması

2010-cu ilin yanvar ayında yerli xalqların insan hüquqları və fundamental azadlıqlarına dair vəziyyət üzrə Xüsusi Məruzəçi Çilidəki yerli xalqların hüquqları ilə bağlı video konfrans təşkil etmişdir. VCİ-lərin və İnsan Hüquqları üzrə Ali Komissarlığın Cənubi Amerika üzrə Regional Ofisinin dəstəyi ilə video konfrans eyni anda Çilinin beş şəhərində yayımlanmışdır. Xüsusi Məruzəçi öz təqdimatında hazırladığı ölkə hesabatında əldə etdiyi nəticələri və müşahidələri izah etmişdir.
2012-ci ildə Xüsusi Məruzəçi bu təcrübəni Argentinada təkrarlamışdır ki, burada video konfrans BMT-nin Ölkə üzrə Qrupu tərəfindən keçirilmişdir.

## *Vətəndaş cəmiyyəti necə iştirak edə bilər?*

◊ Səfərin həyata keçirilməsi tələbi
- Mandata malik səlahiyyətli nümayəndələrə ölkələrinə səfər etməyi və bu səfəri əsaslandırmaq üçün məsələnin mahiyyətinə dair məlumatları təmin etməyi təklif etmək;
- İnsan Hüquqları üzrə Ali Komissarlığın vətəndaş cəmiyyətinə göndərdiyi elektron məktublar vasitəsilə ölkə səfərləri ilə bağlı gözlənilən tələblər haqda məlumatlı olmaq;
- Səfərlərlə bağlı tələblərin təmin olunması üçün Hökumət və digər maraqlı iştirakçılarla (məsələn, parlament üzvləri, diplomatik missiyalar) təbliğati işlər aparmaq;

◊ İzləmə məqsədilə həyata keçirilən səfərlərin təşkili və reallaşdırılması işində iştirak etmək;

◊ İzləmə hesabatları üçün məlumatları təmin etmək;

◊ İzləmə tədbirləri ilə bağlı təklif irəli sürmək, iştirak etmək və mümkün olduğu təqdirdə belə tədbirləri təşkil etmək.

## Müraciətlərin izlənməsi

Hər növbəti sessiyada bütün xüsusi prosedurlar çərçivəsində İnsan Hüquqları Şurasına birgə kommunikasiya hesabatları təqdim edilir. İldə üç dəfə nəşr edilən kommunikasiya hesabatlarına müvafiq Dövlətə və ya digər quruma verilmiş müraciətlərin qısa icmalı daxil olur. Göndərilən müraciətlərin mətni və Hökumətlərin verdiyi cavab hiperlinklər vasitəsilə əldə edilə bilir. Xüsusi prosedurlar müraciətin göndərildiyi vəziyyətə dair əlavə məlumat qəbul edib, onu nəzərdən keçirə bilər. Nəzarət xarakterli müraciət adətən ilkin informasiyanı təqdim edən eyni mənbələrdən təmin edilir. 2012-ci ildə xüsusi prosedurlar mövcud olan halların 21% ilə bağlı müraciətlərə dair əlavə informasiya qəbul etmişdir.

Vəziyyət yeni müdaxilənin edilməsini tələb etdikdə xüsusi prosedurlar nəzarət xarakterli müraciətlər göndərə bilər. Nəzarət xarakterli müraciətlərin bir çoxu təqdim edilmiş əlavə məlumata əsaslanır. 2012-ci ildə müraciətlərin 31% nəzarət xarakterli olmuşdur.

Nəzarət xarakterli müraciətlər ölkəyə səfərlər zamanı, eləcə də maraqlı Dövlətlərin nümayəndələri ilə aparılan diplomatik məsləhətləşmələr zamanı verilir. Bir neçə simvolik halda xüsusi prosedurlar pres-reliz nəşr edə bilər.

Nəzarət xarakterli müraciətlər mandat sahiblərinin illik hesabatlarında müşahidələr vasitəsilə hazırlanır. Müşahidələr əsasən hesabatvermə dövründə ölkədə insan hüquqlarının pozulması hallarında müşahidə olunan tendensiya və variantlarla, eləcə də fərdi halların sayı ilə əlaqədar olur.

### Sərbəst toplaşmaq və assosiasiya hüquqlarına dair Xüsusi Məruzəçinin Müşahidə hesabatı

Xüsusi Məruzəçi 2010-cu ildə mandatını qəbul etdiyi andan iki müşahidə hesabatı hazırlamışdır ki, Hökumətlərin məhz verilən müraciətlərə cavabları baxımından burada o, insan hüquqlarının pozulması ilə bağlı xüsusi hallara dair narahatlıqları bir daha vurğulamışdır.

### İxtiyari həbsə dair İşçi Qrupun məlumat bazası

2011-ci ildə başlanmış ixtiyari həbs üzrə İşçi Qrupun **məlumat bazası** 1991-ci ildən İşçi Qrupun qəbul etdiyi rəyləri axtarmaq üçün praktiki axtarış alətidir. Məlumat bazası rəylərin kəmiyyət və keyfiyyət baxımından təhlilini təşviq edir, İşçi Qrupa əsassız ixtiyari həbslə bağlı işin təqdim edilməsində ixtiyari həbsin qurbanlarına, vəkillərə və digər tərəflərə yardım göstərə bilir.[23]

23 www.unwgaddatabase.org/un/

### Məcburi və ya könülsüz yoxolma hallarının izlənməsi

Məcburi və ya könülsüz yoxolma üzrə İşçi Qrup ailələr və maraqlı Hökumətlər arasında kommunikasiya kanalını qurmağa çağırır. Mübahisəli olan hala dair mənbələrin təqdim etdiyi hər hansı mühüm əlavə məlumat aidiyyatı Hökumətə verilir. İşçi Qrupu yoxa çıxmış insanın aqibəti və ya yeri barədə Hökumətlərin cavabını mənbəyə göndərir, mənbəni müşahidənin nəticələri barədə məlumat və ya əlavə təfərrüatlar verməyə dəvət edir. Əgər mənbə altı ay ərzində cavab vermirsə və ya İşçi Qrup tərəfindən səbəbsiz hesab edilən əsaslarla Hökumətin informasiyasına etiraz edirsə, məsələnin aydınlaşdığı hesab edilir. Məsələ aydınlaşmayanadək, dayandırılanadək və ya məsələnin bağlanması üçün qərar verilənədək açıq qalır. İşçi Qrup hər müvafiq Hökumətə aydınlıq gətirilməli olan məsələləri ildə bir dəfə, əvvəlki sessiyadan sonra təqdim edilmiş və təcili tədbirin görülməsi tələb olunan bütün halları ildə üç dəfə xatırladır. Mümkün halda və müraciət əsasında İşçi Qrup maraqlı Hökumətə və ya mənbəyə konkret hallara dair yeni informasiya təqdim edir.[24]

## *Vətəndaş cəmiyyəti necə iştirak edə bilər?*

- Narahatlıq doğuran vəziyyətlərə və hallara dair göndərilən müraciətlər barədə öyrənmək üçün kommunikasiya hesabatlarını müntəzəm şəkildə yoxlayın;
- Məsələlər barədə əlavə məlumat toplamaq üçün hesabatları yerli, regional, ölkə və beynəlxalq şəbəkələrdə geniş yayın;
- Əvvəlki müraciətlə bağlı olan müsbət və ya mənfi dəyişiklik barədə yeni mlumat təqdim edin;
- Hökumətlərin cavabını nəzərdən keçirin, xüsusi prosedurlara müvafiq rəylər göndərin;
- Xüsusi prosedurların mandat sahiblərinin İHAK-a dəstək komandaları vasitəsilə onlarla müntəzəm şəkildə əlaqə saxlayın; və
- E-mail ünvanından urgent-action@ohchr.org və ya aidiyyatı xüsusi prosedurlar mandatının e-mail ünvanından istifadə edin. Xüsusi prosedurların direktivini aşağıdakı ünvandan əldə edin:

**http://goo.gl/5qoNL**

[24] Əlavə təfərrüatlar üçün İşçi Qrupun iş metodlarına bax (A/HRC/10/9, Əlavə 1).

## 2012-ci ildə regionlar üzrə verilən müraciətlər və nəzarət xarakterli müraciətlər




## Tematik hesabatlarla bağlı izləmə tədbirləri

Standart təcrübə olaraq xüsusi prosedurlar İnsan Hüquqları Şurasına və ya Baş Assambleyaya illik tematik hesabatları təqdim etmək və ya onları müzakirə etmək üçün tədbirlər təşkil edir və ya onlarda iştirak edirlər. Bunlar Şura sessiyası və ya digər konfranslar və ya seminarlar zamanı keçirilən paralel tədbirlər ola bilər. Pres-relizlər və ya internet hekayələrin verilməsi, hesabatın mövzusunda mətbuat konfranslarının keçirilməsi də adi haldır. Tematik hesabatlarda ünvanlanan insan hüququ məsələlərinə medianın diqqətini çəkmək üçün Tematik beynəlxalq günlər də yaxşı fürsət ola bilər.

### İnternetə əsaslanan vasitələr: Din və ya əqidə azadlığına və işgəncə əleyhinə təşəbbüsə dair xülasə

**Din və ya əqidə azadlığına dair xülasə**
2011-ci ildə dini və ya əqidə azadlığına dair Xüsusi Məruzəçinin mandatının qurulmasının 25 illiyi qeyd edilmişdir. Bu münasibətlə 1986-cı ildən xidmət göstərmiş dörd mandat sahibinin müşahidə nəticələri və tövsiyələrinin verildiyi **Dini və ya əqidə azadlığına dair xülasə** dərc edilmişdir. Təbliğat, təhsil və tədqiqat aləti kimi hazırlanmış Xülasəyə mövzular üzrə 1986-cı ildən 2011-ci ilədək müddəti əhatə edən kateqoriyalara bölünmüş mandat hesabatlarından çıxarışlar daxildir.

**İşgəncə əleyhinə təşəbbüs**
2013-cü ildə işgəncə üzrə Xüsusi Məruzəçi ölkəyə nəzarət səfərləri və tematik hesabatlarla bağlı pres-relizlərdən, müsahibə, konfranslar, dinləmələr, publisistik məqalələr və digər media fəaliyyətindən başqa, bütün tematik, ölkə və müşahidə hesabatları daxil olmaqla nəzarət xarakterli fəaliyyətə dair məlumatların toplandığı onlayn rejimli platformanı işə salmışdır.

### *Vətəndaş cəmiyyəti necə iştirak edə bilər?*

- Tematik hesabatın mövzusunda İnsan Hüquqları Şurası zamanı paralel tədbirlər təşkil etmək və ya iştirak etmək.
- VCİ-lərin fəaliyyətini qüvvətləndirmək üçün tematik hesabatların tapıntılarına və tövsiyələrinə istinad etmək (məs., vəkillik, potensial quruculuğu, məlumatlandırmanın artırılması, monitorinq)

## 5.4 Universal Dövri İcmal

Universal Dövri İcmalın ilk dövrü 2011-ci ilin oktyabr ayında başa çatmış, bu zaman BMT-yə Üzv Dövlətlərin hər biri gözdən keçirilmişdir. İkinci və növbəti icmal silsilələrində ilk icmalın tövsiyələrini həyata keçirmək üçün aparılmış tədbirlərə, eləcə də digər dəyişikliklərə dair Dövlətlərin informasiya verməleri gözlənilir. Əlavə olaraq, UDİ üzrə gündəliyin 6-cı maddəsi ilə İnsan Hüquqları Şurasının sessiyaları zamanı müntəzəm şəkildə yeni məlumatlar verilə bilər. Həm Dövlətlər, həm də QHT-lər aralıq hesabatlar, şifahi və yazılı bəyanatlar vasitəsilə yeni məlumat təqdim edə bilər.

[25] www.ohchr.org/EN/Issues/FreedomReligion/Pages/Standards.aspx
[26] http://antitorture.org
[27] Paralel tədbirlərin təşkil edilməsi ECOSOC məsləhət statusu olan QHT-lərlə məhdudlaşır.

## *Vətəndaş cəmiyyəti necə iştirak edə bilər?*

- İştirakçı tərəflərin verdiyi hesabatın icmalına daxil ediləcək informasiyanı təqdim edərkən Dövlətin ilk silsilənin tövsiyələrinə necə əməl etdiyinin və ya etmədiyinin təhlilini daxil etmək vacibdir.
- VCİ-lər Dövlətin icra istiqamətindəki tərəqqisinin təhlili barədə nəzarətçi Dövlətləri, xüsusilə də ilk icmal zamanı tövsiyələri hazırlamış Dövlətləri məlumatlandıra bilər.
- ECOSOC məsləhətləşmə statusu olan QHT-lər gündəliyin 6-cı maddəsi ilə İnsan Hüquqları Şurasına yazılı və şifahi bəyanatlar verə bilər, məqsəd Dövlətlərin UDİ tövsiyələrinə əməl etməsində olan tərəqqi və dəyişikliklər barədə son məlumatları təqdim etməkdir.

Bu qurumlarda vətəndaş cəmiyyətinin iştirakı ilə bağlı təlimat üçün xahiş edirik İHAK-ın vətəndaş cəmiyyəti üçün təlimatlarına – Birləşmiş Millətlər Təşkilatının insan hüquqları proqramı ilə iş və Universsal Dövri İcmala dair Praktiki Təlimatlara baxın.

### UDİ üzrə izləmə alətləri

QHT **UDİ-İnfo** UDİ tövsiyələrinin icrasını dəstəkləmək, təşviq və monitorinq etmək üçün alətlər hazırlamışdır. Buraya xüsusilə aşağıdakılar daxildir:
İlk silsilədən iki il sonra tövsiyələrin icmalını nəzərdən keçirən (orta müddətli icranın qiymətləndirilməsi), UDİ-nin ikinci silsiləsi üzrə Dövlətin öz ölkə hesabatında icraya dair təqdim etdiyi informasiya ilə ilk silsilənin tövsiyə və öhdəliklərini müqayisə edən izləmə proqramı.
***İcraya yol*** üzrə tədqiqat, burada 66 ölkəyə ünvanlanmış 6,542 tövsiyədən 3,294 tövsiyənin icrasına nəzər salan nəzarət proqramı vasitəsilə toplanmış informasiya və məlumatlar təhlil edilir.
**Vətəndaş cəmiyyəti üçün izləmə dəsti,** burada beş tövsiyə edilən tədbir göstərilir: 1. UDİ tövsiyələrinin və öhdəliklərinin ictimaiyyətə açıqlanması; 2. İcranın planlaşdırılması; 3. İcrada iştirak etmək üçün Dövlətlə dialoqa başlanması; 4. İcranın monitorinqi; və 5. İcraya dair hesabatvermə.
**Organisation internationale de la Francophonie** UDİ tövsiyələri və öhdəliklərinin icrasına dair **Praktiki Təlimat** nəşr etmişdir. İlk öncə Ölkələr üçün nəzərdə tutulan Təlimat nəzarət və icra funksiyalarının yerinə yetirilməsində Dövlət tərəfdaşları olaraq VCİ-lar da daxil olmaqla digər iştirakçı tərəflərə aiddir. Təlimat 10 mərhələdə icra planının yerinə yetirilməsi ilə icranın aparılmasını təklif edir:

1. Müvafiq məlumatların toplanması.
2. Mövzular üzrə qruplaşdırılması.
3. Tövsiyələrdən irəli gələn gözlənilən tədbir və nəticələrin müəyyən edilməsi.
4. İcra tədbirlərinin müəyyən edilməsi.
5. Hər sektor üzrə inteqrə edilmiş metodun qəbul edilməsi.
6. Dövlət səviyyəsində icra üzrə cavabdehliklərin təyin edilməsi.
7. Ölkə səviyyəsində icraçı tərəfdaşların müəyyən edilməsi.
8. İcra üçün vaxt çərçivəsinin müəyyən edilməsi.
9. Potensial quruculuğu və texniki yardıma olan ehtiyacın və beynəlxalq səviyyədə icraçı tərəfdaşların müəyyən edilməsi.
10. İcra üçün nəzarət və qiymətləndirmə strategiyasının hazırlanması.

[29] www.upr-info.org/followup/
[30] www.francophonie.org

## 5.5 Kompleks yanaşma

Bu bölmədə müxtəlif mexanizmlərin hazırladığı izləmə prosedurları və praktikaları ayrıca təqdim edilir, çünki oxşarlıqlar olsa belə, onlar hər mexanizmin ayrı-ayrı xüsusiyyətlərini təşkil edir.

Hər bir halda, bir daha vurğulamaq mühümdür ki, izləmə fəaliyyəti kompleks yanaşma ilə həyata keçirildikdə səmərəli olur, insan hüquqları üzrə müxtəlif mexanizmlərin verdiyi tövsiyələr bir-birini qüvvətləndirir, icraya doğru onların potensialını maksimum səviyyəyə çatdırır. Bu Təlimatda bölmə 3-ə də baxın.

## 5.6 Təzyiq tədbirləri

BMT, onun insan hüquqları sahəsindəki nümayəndələri və mexanizmləri ilə əməkdaşlıq etməyə can atan və ya əməkdaşlıq etmiş şəxslərə və qruplara qarşı təzyiq tədbirlərinin görülməsi insan hüquqlarını pozan hallardır. Vətəndaş cəmiyyəti izləmə fəaliyyəti çərçivəsində BMT-nin insan hüquqları mexanizmləri ilə əməkdaşlıq etməyə çalışdıqda da təzyiq tədbirləri aparıla bilər.

İnsan Hüquqları Şurasının 12/2 saylı qətnaməsi Baş Katibin Şuraya illik hesabat təqdim etməsini müəyyən etmişdir ki, bu da BMT-nin insan hüquqları mexanizmləri ilə əməkdaşlıq edən şəxslərə qarşı əsassız təzyiq tədbirlərinin toplusu və təhlilindən, hədə-qorxu və təzyiqin göstərilməsi məsələlərinin necə həll edilməsi haqda tövsiyələrdən ibarətdir.[31]

Şura, xüsusi prosedurlar və saziş qurumları ilə əməkdaşlıq, o cümlədən onların izləmə prosedurları və təcrübələri ilə bağlı təzyiq hallarından başqa, İHAK-la, onun ölkədəki təmsilçiliyi və insan hüquqları üzrə müşavirlərlə, BMT-nin Ölkə Komandaları, sülhməramlı missiyaların insan hüquqları komponentləri və s. ilə əməkdaşlıqla bağlı aparılan təzyiq tədbirləri hesabata daxil ola bilər. Əvvəlki hesabatlara daxil edilmiş hallarla bağlı nəzarət xarakterli informasiya müvafiq olub, alqışlanır.

Təzyiq tədbirləri aşağıdakı fərdlərə qarşı baş aparıla bilər:

- BMT, onun insan hüquqları sahəsindəki nümayəndələri və mexanizmləri ilə əməkdaşlıq etməyə can atan və ya əməkdaşlıq etmiş və ya onlara ifadə və ya informasiya vermiş şəxslər;
- İnsan hüquqlarının və fundamental azadlıqların qorunması üçün BMT-nin nəzarəti altında müəyyən edilmiş prosedurlardan istifadə edən və ya etmiş və ya bu məqsədlə onlara hüquqi və ya digər yardım göstərmiş şəxslər.
- İnsan hüquqları alətləri ilə müəyyən edilmiş prosedurlar çərçivəsində müraciət təqdim edən və ya təqdim etmiş, və/və ya bu məqsədlə onlara hüquqi və ya digər yardım göstərmiş şəxslər;
- İnsan hüquqlarının pozulmasının qurbanları ilə qohum olan və ya qurbanlara hüquqi və ya digər yardım göstərmiş olan şəxslər.

[31] 2012-ci və 2011-ci il üzrə hesabatlar üçün bax A/HRC/21/18 vəA/HRC/18/19.

Baş Katibin hesabatı vasitəsilə təzyiqin göstərilməsi hallarının nəşri müdafiənin artması ilə nəticələnə bilər. Ancaq ictimai açıqlama da ehtiyatla yoxlanmalıdır. Bu səbəbdən hesabata yalnız özü barəsində informasiyanın açıqlanmasına razılığını bildirmiş şəxslərin hekayələri daxil edilir.

Təzyiq haqqında informasiya təqdim etmək üçün xahiş edirik aşağıdakı ünvanla əlaqə saxlayın:
reprisals@ohchr.org

# 6. Əlavə məlumat

İHAK-ın internet səhifəsi:

www. ohchr.org

Aşağıdakı səhifədə vətəndaş cəmiyyəti üçün İHAK alətləri haqda məlumat vardır:

www.ohchr.org/EN/AboutUs/Pages/CivilSociety.aspx
BMT-nin 6 rəsmi dilində

Universal İnsan Hüquqları İndeksi:

http://uhri.ohchr.org/

İnsan Hüquqları üçün Beynəlxalq Xidmət və İnsan Hüquqları üzrə Hüquq Mərkəzi, **BMT-nin insan hüquqları ilə bağlı tövsiyələrinin ölkədə yerinə yetirilməsi** – İnsan hüquqları müdafiəçiləri və vəkilləri üçün təlimat, əldə edilə bilər

www.ishr.ch

UDİ-İnfo üzrə nəzarət alətləri:

www.upr-info.org/followup

La Francophonie, Universal Dövri İcmal üzrə Praktiki Təlimat, əldə edilə bilər

www.francophonie.org

***Hökmdən ədalətədək – İnsan hüquqları üzrə beynəlxalq və regional qərarların icrası, 2010, və Hüquqdan məhkəmə müdafiəsi vasitələrinədək: insan hüquqları üzrə beynəlxalq qərarların icrası üçün struktur və strategiyalar, 2013,*** əldə edilə bilər

www.opensocietyfoundations.org

İnternetlə yayımlama
• UN web TV:

http://webtv.un.org

• Saziş qurumlarının sessiyaları:

www.treatybodywebcast.org
Xəstələrə Qulluq sahəsində İnsan Hüquqları üzrə Vəkil üçün Təlimatlar:

http://health-rights.org/

CRC yekun qeydlərinə dair izləmə tədbirlərinə konkret misallar:

www.childrightsnet.org/NGOGroup/CRC/FollowUp/

İxtiyari həbslər üzrə İşçi Qrupun məlumat bazası:

www.unwgaddatabase.org/un/

**Dini və əqidə azadlığı üzrə icmal:**

www.ohchr.org/EN/Issues/FreedomReligion/Pages/Standards.aspx

Bəzi QHT-lər insan hüquqları üzrə konkret mexanizmlərlə yaxından işləyir. Onlar VCİ-lərin həmin mexanizmlərdə iştirakını dəstəkləyir, onlara təlimat və yardım təklif edə bilir. Bu QHT-lərdən bəziləri aşağıda göstərilmişdir:

- İCCPR üçün Mülki və Siyasi Hüquqlar Mərkəzi (CCPR Mərkəzi)
- CRC üçün Uşaq Hüquqları Konnekt
- CRPD üzrə Beynəlxalq Əlilliyi Olan Şəxslər Alyansı (İDA)
- CERD üzrı Ayrı-Seçkilik və İrqçiliyin Bütün Formalarına qarşı Beynəlxalq Hərəkat (İMADR)
- Mühacir Əməkçilər Komitəsi üzrə Miqrant Əməkçilər Konvensiyasının Beynəlxalq Platforması
- İşgəncə Əleyhinə Komitə üçün İşgəncə Qurbanları üçün Beynəlxalq Reabilitasiya Şurası
- Qadınlara qarşı ayrı-seçkiliyin bütün formaları Komitəsi üzrə Asiya-Sakit Okean regionunda International Women's Rights Action Watch (IWRAW)
- UDİ üçün UDİ-Info

# 7. Bizimlə əlaqə saxlayın

İHAK-ın Vətəndaş Cəmiyyəti Bölməsi ilə aşağıdakı vasitələrlə əlaqə saxlamaq olar:
civilsociety@ohchr.org

Telefon: +41(0) 22 917 9656

İHAK-ın İnsan Hüquqları Təlimatları və vətəndaş cəmiyyəti üçün praktiki təlimatları ərəb, çin, ingilis, fransız, rus və ispan dillərində aşağıdakı səhifədən əldə edilə bilər
www.İHAK.org/EN/AboutUs/Pages/CivilSociety.aspx

Vətəndaş Cəmiyyətinin e-mail yayımlama sistemində insan hüquqları üzrə bütün mandatlara və mexanizmlərə dair son məlumatlar və təlimatlar, eləcə də fondlar, qrant və təqaüd, ərizənin verilməsi üçün son müddətlərə dair məlumatlar təqdim edilir. Yazılmaq üçün vətəndaş cəmiyyətinin internet səhifəsinə və ya aşağıdakı ünvana daxil olun

**http://goo.gl/O8snt**

**İnsan Hüquqları üzrə Ali Komissarlığın 20-ci il dönümünün qeyd edilməsi**

*“Vətəndaş cəmiyyəti inkişaf edib, genişlənmiş, bu gün insan hüquqları sahəsində 20 il əvvəl olduğundan daha çox sayda milli təşkilat və insan hüququ müdafiəçiləri vardır. Bu təşkilatlar və fərdlər insan hüquqları üçün həyat mənbəyidir: onlar dəyişikliyi təbliğ edənlərdir, təhqir, pis qanunvericilik və sürünən avtoritarizm barədə həyəcan siqnalı verən insanlardIr. Bu praktiki təlimat İHAK-ın 20-ci il dönümünü qeyd edir və bütün dünyada insan hüquqları naminə işləyən vətəndaş cəmiyyətinə həsr olunmuşdur.”*

Navi Pillay
Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı
Oktyabr 2013

UNITED NATIONS HUMAN RIGHTS OFFICE OF HIGH COMMISSIONER | 20 WORKING FOR YOUR RIGHTS 1993 WORLD CONFERENCE ON HUMAN RIGHTS



Vətəndaş Cəmiyyəti üçün Praktiki Təlimat

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İNSAN HÜQUQLARI ÜZRƏ TÖVSİYƏLƏRİNİN İCRASINI NECƏ İZLƏMƏLİ


**İnsan Hüquqları üzrə Ali Komissarlıq**

Palais des Nations

CH 1211 Cenevrə 10 – İsveçrə

Telefon: +41 (0)22 917 90 00

Faks: +41 (0) 22 917 90 08

www.ohchr.org


UNITED NATIONS HUMAN RIGHTS OFFICE OF HIGH COMMISSIONER

20 YEARS WORKING FOR YOUR RIGHTS 1993 WORLD CONFERENCE ON HUMAN RIGHTS